## PREZİDENT İLHAM ƏLİYEV LİTVANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Eqidius Navikas fəxri qarovul dəstəsinin qarşısından keçib. Eqidius Navikas etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra səfirlə söhbət edən Prezident İlham Əliyev...

Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV: BU GÜN DÜNYADA SAVAD, BİLİK, TEXNOLOGİYALAR HƏR ŞEYİ HƏLL EDİR

Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr vardır. Təbii ehtiyatlar, neft-qaz resursları - bunlar sadəcə olaraq bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir. AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 89-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı...




Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 25 sentyabr 2019-cu il, çərşənbə / № 175 (5550). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Xorvatiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



### Ölkə sahibkarları regionların sosial-iqtisadi inkişafı prosesində fəal iştirak edirlər

Məlum olduğu kimi, son 16 ildə ölkəmiz böyük inkişaf yolu keçib. Bu inkişaf cari ilin birinci yarısında da uğurla davam edib. Belə ki, iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlətimizin başçısı 2019-cu ilin birinci yarımilliyində ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin icra olunduğunu qeyd edib, görülmüş işləri müsbət qiymətləndirib...

Bax səh. 8

### Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır



Müstəqil Azərbaycanın müasir mənzərəsini səciyyələndirən ən mühüm amillər möhkəm ictimai-siyasi sabitlik və dinamik iqtisadi inkişafdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara...

Bax səh. 6

### Azərbaycan-Moldova parlamentlərarası əməkdaşlığının inkişafına dair müzakirələr aparılıb

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Qazaxıstana səfəri çərçivəsində sentyabrın 24-də Moldova parlamentinin Sədri xanım Zinaida Qreçanıy ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı məsələləri müzakirə olunub. Bu münasibətlərin inkişafının intensiv xarakter daşıması yüksək qiymətləndirilib. Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki...

Bax səh. 3

### *Sinxua:* Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin-Azərbaycan əlaqələrinin inkişafını sürətləndirib




Mühüm coğrafi mövqeyə malik olan Azərbaycan son illərdə regional nəqliyyatın inkişafına özünün strateji istiqamətlənməsini möhkəmləndirib. AZƏRTAC xəbər verir ki, bu fikir Çinin milli xəbər agentliyi olan...

Bax səh. 4




## AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN SƏDRİ AVRASİYA ÖLKƏLƏRİ PARLAMENT SƏDRLƏRİNİN IV KONFRANSINDA İŞTİRAK EDİB

Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində Avrasiya ölkələri parlament sədrlərinin IV konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, "Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçirilən...

Bax səh. 3

## ÖLKƏMİZİN İNKİŞAF STRATEGİYASININ MAHİYYƏTİNDƏ DAVAMLI İQTİSADİ ARTIM VƏ YÜKSƏK SOSİAL RİFAH DAYANIR

...Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişafını uğurla davam etdirir. Dövlətimizin iqtisadi siyasətinin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün məsələlərin həllində iqtisadi aspektin ön plana çəkilməsidir. Dövlət proqramlarının, ölkə başçısının Fərman və sərəncamlarının icrası Azərbaycanda gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu davamlı şəkildə artırır. Cənab Prezident İlham Əliyevin hərtərəfli inkişaf strategiyasının mahiyyətində mövcud imkan və resurslara söykənərək Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifaha nail olmaq dayanır. Bununla yanaşı, dövlət başçısının müəyyənləşdirdiyi bu kompleks inkişaf xətti səmərəli dövlət idarəetməsini, qanunun aliliyini, insanların hüquq və azadlıqlarının...

Bax səh. 6



## "ŞƏRQ-QƏRB", "ŞİMAL-CƏNUB" BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİ VƏ AZƏRBAYCANIN GEOİQTİSADİ MARAQLARI

Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi Azərbaycanı...

Bax səh. 4

### Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilib

"Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası" və "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu" tərəfindən Çin Xalq Respublikasının Şencen şəhərində BMT tərəfindən rəsmi tanınan 4-cü Beynəlxalq Xeyriyyəçilik Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Avropa, Amerika və Asiya regionunda fəaliyyət göstərən xeyriyyəçi təşkilatların rəhbərləri və nümayəndələri iştirak edib. Açılış mərasimində çıxış edən...

Bax səh. 4

### Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki...

Bax səh. 3

### Sosial Tədqiqatlar Mərkəzi "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda konfrans təşkil edib

Sentyabrın 24-də Sosial Tədqiqatlar Mərkəzi (STM) "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda...



Bax səh. 5

### Beyləqanda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb

Sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Beyləqan rayon İcra Hakimiyyətinin birgə...



Bax səh. 3

### ATƏT-in iclasında Azərbaycanın milli azlıqların hüquqlarının qorunması sahəsində nailiyyətlərindən danışılıb

Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə...




Bax səh. 7

### AZƏRTAC və TASS arasında növbəti təcrübə mübadiləsi proqramı həyata keçirilir

AZƏRTAC və Rusiyanın TASS agentliyi arasında təcrübə mübadiləsi çərçivəsində növbəti proqramın həyata keçirilməsinə başlanılıb...



Bax səh. 7

# Prezident İlham Əliyev Xorvatiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Branko Zebiç fəxri qarovul dəstəsinin qarşısından keçib.

**Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir deyib:** Sabahınız xeyir, cənab Prezident. Adım Branko Zebiçdir. Xorvatiyanın səfiriyəm. Burada olmaq, etimadnaməni təqdim etmək və Sizin çox yaxşı tanıdığınız Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarını Sizə çatdırmaq mənim üçün şərəfdir.

**Prezident İlham Əliyev:** Mənim salamlarımı xanım Prezidentə çatdırmağınızı xahiş edirəm. Mən bizim görüşlərimizi, xüsusilə ötən il ölkənizə rəsmi səfərim zamanı keçirdiyimiz görüşü xatırlayıram. Apardığımız müzakirələr ölkələrimiz arasında tərəfdaşlığın inkişafına xidmət edir. Düşünürəm ki, biz bir sıra sahələri əhatə edən çox səmərəli əlaqələr qurmağa müvəffəq olmuşuq. Əlbəttə ki, xanım Prezidentin Azərbaycana rəsmi səfəri və mənim ölkənizə səfərim əməkdaşlığımızın çox mühüm nümunələridir. Əminəm ki, özünüzü Azərbaycanda evinizdəki kimi hiss edəcəksiniz, çünki ölkələrimiz arasındakı dostluq münasibətləri xalq diplomatiyasını da əhatə edir. Düşünürəm ki, son illərdə Xorvatiyada daha çox adam bizim barəmizdə məlumatlı olub və daha çox azərbaycanlı sizin ölkəniz barədə məlumat əldə edib. Bu səbəbdən də düşünürəm ki, Azərbaycanda bir neçə il fəaliyyət göstərmək çox xoş olacaq. Əminəm ki, siz ənənəvi sahələrdə əməkdaşlığımızın güclənməsinə, həmçinin tərəfdaşlığımızın yeni sahələrinin tapılmasına öz töhfənizi verəcəksiniz. Sizə ölkəmizdə xoş günlər və uğurlar arzulayıram.



**Səfir Branko Zebiç:** Təşəkkür edirəm. Mən özümü çox yaxşı və artıq evimdəki kimi hiss edirəm. Mən bundan əvvəl bir il müddətində müvəqqəti işlər vəkili işləmişəm. Siz Zaqrebə səfər edən zaman mən Azərbaycanda yaşamağa başladım. Mən Xorvatiya nümayəndə heyətinin tərkibində idim. Baş Nazir məni Sizə təqdim etdi və mənim burada səfir olacağıma dair söz verdi. Lakin bu, Xorvatiyada bir qədər vaxt tələb etdi. Prosedur belədir.

**Prezident İlham Əliyev:** Azərbaycanda yaxşı yerləşmisiniz?

**Səfir Branko Zebiç:** Bəli, yaxşı yerləşmişəm, özümü evimdəki kimi hiss edirəm. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığı gücləndirmək və genişləndirmək üçün çoxlu sahələr var. Söhbət təkcə iqtisadi əməkdaşlıqdan getmir. Bu sahədə işlər çox yaxşı gedir. Xorvatiyanın Azərbaycanda ilk daimi səfiri kimi mən xüsusilə xalqlar arasında əməkdaşlığı genişləndirmək istərdim.

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Xorvatiya Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev Litvanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Eqidius Navikas fəxri qarovul dəstəsinin qarşısından keçib.

Eqidius Navikas etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

**Sonra səfirlə söhbət edən Prezident İlham Əliyev deyib:** Sizi yenidən görməyimə şadam, Azərbaycana xoş gəlmisiniz. Ölkəmizdə sizə xoş günlər arzulayıram. Əminəm ki, Azərbaycanda çalışdığınız müddətdə bizim ənənəvi dostluq münasibətlərimiz uğurla inkişaf edəcək, yeni sahələri əhatə edəcək. Bizim ölkələr yaxşı tərəfdaşlardır, köhnə dostlardır, bir-birimizi çoxdan tanıyırıq və uzun müddət ərzində fəal əməkdaşlıq edirik. Yəqin ki, mənim sizin prezidentlərlə əlaqələrim barədə xəbərdarsınız. Cənab Adamkusla biz Bakıda da, Vilnüsdə də tez-tez görüşmüşük. Eləcə də Prezident Qribauskayte ilə də bizim çox yaxşı münasibətlərimiz olub. Belə ki, bizim əlaqələrimizin tarixi kifayət qədər müsbətdir. Ona görə də düşünürəm ki, münasibətləri irəli aparmaq üçün xeyli işiniz olacaq.

Əməkdaşlığın ənənəvi və yeni sahələri mövcuddur. Əlbəttə, ticari-iqtisadi əməkdaşlıq cəhətdən müəyyən işlər görülməlidir. Əmtəə dövriyyəsini artırmaq mümkündür. Ticari-iqtisadi əlaqələri artırmaq məqsədilə müəyyən işçi qruplar yaratmaq olar. Biz bütün digər istiqamətlərdə də ənənəvi əməkdaşlığı davam etdirmək, tərəfdaşlığı möhkəmləndirmək niyyətindəyik. Əməkdaşlıq həm də hansısa konkret nəticəyə yönəlməlidir. Sizə ölkəmizdə yaxşı günlər və Azərbaycanda fəal işləməyi arzulayıram.



**Səfir Eqidius Navikas deyib:** Çox sağ olun cənab Prezident. Mən, ilk növbədə, Sizə Litva Prezidenti cənab Nausedanın ən xoş arzularını, eləcə də Sizin Litvaya səfərinizlə bağlı dəvəti çatdırmaq istəyirəm. Əlbəttə, mənim üçün Azərbaycanda səfir olmaq böyük şərəfdir və bundan çox şadam. Mən, həmçinin çox şadam ki, artıq qeyd etdiyiniz kimi, dost münasibətlərin və əməkdaşlığın sanballı bazası, təməli var. Mən Bakıda olduğum müddətdə xalqlarımızın çox yaxşı, müsbət əlaqələrinin mövcudluğunu hiss etdim.

Səfir Azərbaycan və Litva arasında yüksək səviyyəli siyasi dialoqun məmnunluq doğurduğunu bildirib. Eqidius Navikas ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında şəhərlərarası əlaqələrin vacibliyinə toxunan səfir Litva və Azərbaycanın 3 şəhəri arasında qardaşlaşma münasibətlərinin qurulduğunu bildirib. Səfir Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə toxunub və ölkəsinin Avropa İttifaqının "Tvinninq" layihələri çərçivəsində Azərbaycanla yaxından əməkdaşlıq etdiyini deyib.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın hərtərəfli inkişaf etdiyini, ötən müddət ərzində Avropa İttifaqı rəhbərliyinin Azərbaycana səfərlərini və özünün Avropa İttifaqının mənzil-qərargahına səfərini xatırladaraq Avropa İttifaqı üzv ölkələrinin bu əməkdaşlığın inkişafına verdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb.

Prezident İlham Əliyev Litva Respublikasının Prezidenti Gitanas Nausedanın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev Fransanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Zakari Qros fəxri qarovul dəstəsinin qarşısından keçib.

Zakari Qros etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

**Səfirlə söhbət edən Prezident İlham Əliyev deyib:** Sizə Azərbaycanda xoş günlər arzulayıram. Artıq uzunmüddətli və çox uğurlu bir tarixə, böyük potensiala malik əməkdaşlığımızın əhatə dairəsini nəzərə alaraq ümid edirəm ki, dolğun bir gündəliyiniz olacaq. Əlbəttə ki, əməkdaşlığımızın inkişaf mərhələləri sizə yaxşı məlumdur. Bilirsiniz ki, Azərbaycan hər zaman sizin ölkənizi dünyanın ən mühüm tərəfdaş ölkələrindən biri kimi qəbul edir. Mənim Parisə çoxsaylı səfərlərim və Prezident Şirak, Prezident Sarkozi və Prezident Olland ilə, həmçinin ötən il Prezident Makron ilə olan görüşlərimin hamısı və digər yüksək səviyyəli rəsmilərlə görüşlərim əməkdaşlığımızın inkişafında çox böyük rol oynamışdır. Təsadüfi deyil ki, fransız şirkətləri Azərbaycanda bir çox mühüm layihələr həyata keçiriblər. Xatırlayıram ki, Prezident Ollandın səfəri zamanı bir neçə milyard dollarlıq müqavilələr imzaladıq. Onlardan bir hissəsi artıq icra edilib, digərləri isə icrasını gözləyir. Fransız şirkətləri burada çox geniş təmsil olunur. Əlbəttə, MEDEF ilə çoxsaylı görüşlərim haqqında da məlumatlısınız. Son dəfə bu görüş burada, Bakıda keçirildi. Fransada və burada da görüşmüşük. Qarşılıqlı böyük maraq və yaxşı nəticələr var. Düşünürəm ki, bu sahədə möhkəm əməkdaşlığımız var və bu əməkdaşlıq böyük perspektivlərə malikdir. Əlbəttə ki, siyasi əlaqələrimiz də şirkətlər arasında əməkdaşlıq və iqtisadi sahədəki əlaqələrin inkişafında mühüm rol oynayır. Ötən il Prezident Makronla görüşüm əlaqələrimizin gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından çox önəmli idi. Bu görüş bugünkü tərəfdaşlığın inkişaf etdirilməsində mühüm rol oynadı. Əlbəttə ki, nazir Lö Merin səfəri də çox uğurlu oldu. Biz münaqişənin həlli məsələsində də əməkdaşlıq edirik və danışıqların hansı fazada olduğunu bilirik. Əlbəttə ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında da sizin ölkəniz mühüm rol oynayır. İyul ayında Prezident Tuskun da səfəri çox uğurlu idi. Beləliklə, əməkdaşlığımız çox geniş gündəliyə malikdir. Əminəm, görüləsi işləriniz çoxdur və ümid edirəm ki, mövcud əlaqələrimizin müsbət dinamikası fəaliyyətiniz dövründə də davam etdiriləcək.

**Səfir Zakari Qros deyib:** Təşəkkür edirəm. Prezident Makronun ən səmimi salamlarını Sizə çatdırıram. Burada, gözəl və uğurla inkişaf edən şəhərinizdə olmağımdan çox məmnunam. Artıq Sizin də qeyd etdiyiniz kimi, bizim möhkəm ikitərəfli münasibətlərimiz mövcuddur və bu məsələdə Sizin şəxsi töhfəniz bizim üçün çox önəmlidir. Təhlükəsizlik məsələləri mühüm əhəmiyyətə malikdir. Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi Avropanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir. Regionda gərginliyin mövcudluğu şəraitində - İran məsələsində Prezident Makron gərginliyin aradan qaldırılmasına səy göstərir. Əlbəttə ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa münaqişənin dinc yolla, ölkənizin ərazi bütövlüyünə hörmət prinsipi



çərçivəsində həllini arzulayır və bu sahədə fəal olmaq niyyətindədir. Biz ölkələrimiz arasında siyasi dialoqu davam etdirməyə ümidvarıq. Sizin də qeyd etdiyiniz kimi iqtisadiyyat, energetika, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlıq bizim üçün çox vacibdir.

Prezident İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Fransa Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.




# Prezident İlham Əliyev: Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir

Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr vardır. Təbii ehtiyatlar, neft-qaz resursları - bunlar sadəcə olaraq bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 89-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Sabunçu rayonu Maştağa qəsəbəsi Savalan yaşayış massivində 28 saylı tam orta məktəbin açılış mərasimində çıxışı zamanı söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin avqust ayından oktyabradək olan dövrü əhatə edir.

Çoxcildliyin 89-cu kitabında Prezident İlham Əliyevin Rusiya Federasiyasına, Xorvatiya, Tacikistan və Qırğız respublikalarına səfərləri, həmçinin Rusiya, Türkiyə və Monqolustan prezidentlərinin Azərbaycana səfərləri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə dair informasiyalar, mətbuata bəyanatların mətnləri toplanıb.

Nəşrdə Azərbaycan Prezidentinin Yaponiya, İsrail, Avstriya, Bolqarıstan, ABŞ və digər dövlətlərin, ATƏT-in, NATO-nun yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair materiallar yer alıb.

Prezident İlham Əliyev bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu kitabda dövlətimizin başçısının Bakı şəhərinin erməni işğalçılarından azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradda və Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə Milli Məclisdə keçirilmiş təntənəli iclasda çıxışlarının mətnləri ilə tanış ola bilər.

Azərbaycan Prezidentinin Masallı, Biləsuvar, Xızı, Lənkəran, Astara rayonlarına, Quba şəhərinə səfərlərinə dair materiallar, Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, digər mühüm tədbirlərdə nitqlərinin mətnləri də bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 89-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan Milli Məclisinin Sədri Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edib








Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində Avrasiya ölkələri parlament sədrlərinin IV konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, "Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçirilən konfransda Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə nümayəndə heyəti iştirak edib.

Konfransda Avropa və Asiyanın 60-dan çox ölkəsindən parlament rəhbərləri və nümayəndə heyətləri, 10-dan çox beynəlxalq parlament təşkilatının təmsilçiləri iştirak ediblər.

Qazaxıstan Respublikasının birinci Prezidenti-Elbası Nursultan Nazarbayev konfransda çıxış edərək Avrasiya ölkələrinin parlamentlərini qanunvericilik sahəsində əməkdaşlığın səmərəliliyini artırmağa çağırıb. O, həmçinin dünya dövlətlərinin nüvə silahının yayılmasına qarşı prosesə qoşulmasının önəmini vurğulayıb.

Milli Məclisin Sədri Oqtay Əsədov çıxışında bildirib ki, bu konfrans Avrasiyanın bu günü və gələcəyi ilə bağlı olan mühüm məsələlərin böyük bir kompleksini müzakirə etməyə imkan yaradır. Burada aparılan fikir mübadiləsi qitəmiz üçün daha yaxşı gələcək qurulması yolları ilə bağlı parlamentimizin ortaq mövqeyinin müəyyən olunmasına kömək edəcək.

Böyük sivilizasiyaların və mədəniyyətlərin beşiyi olan Avrasiyanın Avropa və Asya ərazilərinin mexaniki birləşməsi deyil, spesifik xarakteristikalara malik vahid məkan olduğunu vurğulayan Oqtay Əsədov parlamentlərarası əməkdaşlığın və onun keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyasının əhəmiyyətini qeyd edib. O, hökumətlərin xarici siyasət qərarlarına təsir göstərmək üçün spesifik siyasi mexanizm və alətlərə malik olan parlament diplomatiyasının dövlətlər arasında işbirliyinin inkişafında mühüm rol oynadığını deyib.



Oqtay Əsədov Azərbaycan Respublikası Milli Məclisinin Avrasiya məkanında yerləşən dövlətlərin parlamentləri ilə qarşılıqlı etimada əsaslanan dialoq və tərəfdaşlıq münasibətlərinin qurulması üçün çalışdığını qeyd edib. O bildirib ki, Milli Məclis Avrasiya məkanında təşəkkül tapmış ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatlarının, iqtisadi inteqrasiyanın güclənməsinə, dayanıqlı inkişaf məqsədlərinin əldə edilməsinə töhfə verir.

Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən transmilli layihələrin Avrasiyanın çox geniş bir bölgəsində inkişafın, sülhün, sabitliyin, təhlükəsizliyin, dialoqun və qarşılıqlı anlaşmanın təmin edilməsinə yönəldiyini vurğulayan Milli Məclisin Sədri Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum, TAP və TANAP qaz kəmərlərinin, digər enerji-nəqliyyat layihələrinin Avrasiyanın firavan gələcəyində mühüm rol oynadığını qeyd edib.

Sədr bildirib ki, qarşılıqlı hörmətə və etimada əsaslanan siyasi dialoqun, tərəfdaşlığın və işbirliyinin Avrasiya məkanında mövcud olan problemlərin, o cümlədən ölkəmizin zorla cəlb edildiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərə biləcəyinə inanırıq. Uzun illərdən bəri Azərbaycan dünya birliyinə çağırışlar edərək ədalətin bərpa olunmasını, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərin həyata keçirilməsini tələb edir. Sədr bu münaqişənin, eləcə də digər oxşar münaqişə və problemlərin dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında nizama salınmasının Avrasiya qitəsində və bütün dünyada sülhün, sabitliyin, ədalətin və təhlükəsizliyin təmin edilməsi işinə xidmət edəcəyinə əminliyini bildirib.

Qeyd edək ki, konfransın məqsədi Avrasiya məkanında əməkdaşlığın daha da dərinləşdirilməsi, qanunverici orqanların rəhbərləri və parlamentlərarası təşkilatların başçıları arasında birbaşa dialoqun qurulmasıdır.

Tədbir Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin Avrasiya inteqrasiyası ideyasının 25 illiyinə həsr edilib.

Xatırladaq ki, Milli Məclis Sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlardan Xanlar Fətiyev, Cavanşir Feyziyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil idi.

## Azərbaycan-Moldova parlamentlərarası əməkdaşlığının inkişafına dair müzakirələr aparılıb



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Qazaxıstana səfəri çərçivəsində sentyabrın 24-də Moldova parlamentinin Sədri xanım Zinaida Qreçanıy ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı məsələləri müzakirə olunub. Bu münasibətlərin inkişafının intensiv xarakter daşıması yüksək qiymətləndirilib.

Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, Azərbaycan ilə Moldova arasında əməkdaşlıq nümunəvi olmaqla bərabər, xalqlarımızın maraqlarını tam şəkildə ifadə edir.

Söhbət zamanı Azərbaycan-Moldova parlamentlərarası əməkdaşlığının inkişafına dair fikir mübadiləsi aparılıb.

Oqtay Əsədov Zinaida Qreçanıyı ölkəmizə səfərə dəvət edib.

## Nur-Sultan şəhərində Azərbaycan Milli Məclisi Sədrinin ATƏT PA-nın Sədri ilə görüşü olub




Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov sentyabrın 24-də Nur-Sultan şəhərində ATƏT Parlament Assambleyasının (PA) Sədri Georgi Tsereteli ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Milli Məclisin ATƏT Parlament Assambleyası ilə əməkdaşlığının inkişafından məmnunluğunu bildirib. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən, beynəlxalq nəqliyyat marşrutlarının inkişafında oynadığı roldan danışıb. Milli Məclisin Sədri səmərəli dialoqun davam etdirilməsinin önəmini vurğulayıb.

Georgi Tsereteli Azərbaycana səfərini və ölkəmizdə keçirdiyi məhsuldar görüşləri məmnunluqla xatırlayıb. O bildirib ki, ATƏT PA Cənubi Qafqazın bu bölgəsi ilə əlaqələrin daha da dərinləşməsinə böyük maraq göstərir.

Söhbət zamanı Azərbaycanın ATƏT PA-nın işində məhsuldar iştirak etdiyi və qurumun fəaliyyətinə mühüm töhfə verdiyi qeyd edilib, ATƏT məkanında parlament əməkdaşlığı istiqamətinin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri səfiri salamlayıb, Azərbaycan-Gürcüstan əlaqələrinin müxtəlif istiqamətlərdə inkişaf etdiyini bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ikitərəfli əlaqələrdəki rolundan bəhs edən Ali Məclisin Sədri bunu səmərəli əməkdaşlığın nəticəsi kimi dəyərləndirib.

Zurab Pataradze göstərilən diqqətə görə minnətdarlıq edib, Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafından danışıb. İkitərəfli münasibətlərin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını ifadə edən qonaq Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiklərini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, xatirə şəkli çəkdirilib.

## Beyləqanda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb






Sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Beyləqan rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb.

Beyləqan rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Beyləqan rayon İcra Hakimiyyətinin rəhbər işçiləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi olub. Sonra ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi istiqamətində qarşıda duran vəzifələr, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək, ölkəmizdə həyata keçirilən dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərin, tolerantlıq mühitinin qorunub saxlanmasından danışıb. Bildirib ki, respublikamızda məscid, kilsə və sinaqoqların bərpasına və yenilərinin inşasına xüsusi diqqət yetirilir. Azərbaycanda bütün dinlərin nümayəndələri tolerant mühitdə, dinc, yanaşı fəaliyyət göstərirlər. Respublikamızın digər bölgələrində olduğu kimi, Beyləqan rayonunda da dini durum sabitdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, dini maarifçilik işinin aparılması, dini radikalizm və xurafata qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən danışıb.

Ölkəmizdəki nümunəvi dövlət-din münasibətlərindən söz açan Mübariz Qurbanlı bildirib ki, Azərbaycan dünyəvi respublikadır. Dövlət dinin işinə qarışmır, din isə siyasiləşə bilməz. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin təməlində azərbaycançılıq ideyası dayanır. Ulu Öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, dünyagörüşün, müdrik tövsiyələrin bu günün reallıqları kontekstində oynadığı müsbət rolu daha aydın görürük.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə böyük işlər həyata keçirildiyini deyən M.Qurbanlı əsas milli vəzifələrimizin Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi, sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması, təhlükəsizliyimizin həm ideoloji, həm də siyasi cəhətdən qorunması olduğunu diqqətə çatdırıb. **"Müasir dünya üçün ən ciddi təhdidlərdən biri din adı altında aparılan müharibələr, terror hadisələridir. Azərbaycan Respublikasında din adı altında təhdidlərin qarşısı alınır. Bu, bizim milli vəzifəmizdir",** - deyə Komitə sədri bildirib.

Konfrans işini sentyabrın 25-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Beyləqan, sədrin birinci müavini Səyyad Salahlı Saatlı, sədr müavini Gündüz İsmayılov isə Sabirabad rayonunda vətəndaşları qəbul ediblər. Qəbuldan əvvəl Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin Beyləqan şəhərində ucaldılan abidəsini ziyarət ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Beyləqan, Xocavənd, Saatlı, İmişli və Sabirabad rayonlarının sakinlərinin iştirak etdiyi qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb. Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# “Şərq-Qərb”, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları



Əli Həsənov
**Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor**

Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi Azərbaycanı əsrlərboyu transmilli dünya güclərinin xüsusi maraq dairəsində saxlamışdır. Əlverişli geosiyasi və coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaratmışdır. Həm Ümummilli Lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev mövcud reallığı müstəqil Azərbaycan dövləti üçün əsas şanslardan biri kimi düzgün dəyərləndirərək, ötən 25 ildə bundan həm yeni neft strategiyasının, həm də transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində başlıca amil kimi məharətlə istifadə etmişlər. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun “Şərq-Qərb”, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları” sərlövhəli analitik məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Bir qədər əvvəl yazdığım “Əsrin müqaviləsi” - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə” adlı məqalədə ölkəmizdə təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş yeni neft strategiyası və onun uğurlu nəticələrindən geniş danışmışdım. Bugünkü məqalədə isə həyata keçirilən siyasi strategiyanın digər mühüm istiqamətindən - Azərbaycanın üçüncü minillikdə beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi ilə bağlı 1993-cü ildən həyata keçirilən dövlət siyasəti və onun görünən nəticələri haqqında bəhs etmək istəyirəm.

Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti, qeyd etdiyim kimi, dövlətin 1993-cü ildən xarici iqtisadi və geosiyasi əlaqələr sahəsində həyata keçirdiyi iki əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə olunan bir neçə mühüm istiqaməti xüsusi qeyd edirlər. Bunlar:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafından;
- Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
- “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulmasından;
- Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsindən;
- Logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
- Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TASİM layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
- müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsindən;
- yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətdən;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanmasından və s. ibarətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 16 ildə neftdən gələn gəlirlərin də bir qismini cəlb etməklə, ilk növbədə, ölkəni xarici aləmlə bağlayan əksər avtomobil və dəmir yolları, hava və su nəqliyyatı infrastrukturları, quru, hava və su nəqliyyatına aid kommunikasiyalar, rabitə-informasiya texnologiyaları modernləşdirilmiş, yenidən qurulmuş, yaxud hazırda qurulur. Azərbaycanın üç telekommunikasiya peyki - “Azərspace-1”, “Azersky” və “Azərspace-2” orbitə çıxarılmış, Xəzər dənizinin dibi ilə Avropanı Asiya ilə birləşdirəcək kommunikasiya vasitələrinin çəkilişinə start verilmişdir. Azərbaycanın regional və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin dəstəklənməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət ölkəmizi qısa müddətdə Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevirmişdir.

XX əsrin son onilliyində Avropa İttifaqının maliyyə yardımı, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi səyi ilə reallaşdırılan “İpək Yolu” (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü-liderliyi ilə inşa olunan və 2017-ci il oktyabrın 30-da istismara buraxılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Trans-Avropa-Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş, bununla da qədim İpək Yolunun polad magistrallar üzərində bərpası işi başa çatdırılmışdır.

Məlumdur ki, TRASEKA layihəsinin də əsas təşəbbüskarlarından biri Ümummilli Lider Heydər Əliyev olmuşdur. Məhz Onun təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və yekunda Avropa İttifaqının TRASEKA proqramı əsasında “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Bakı Bəyannaməsi və Çoxtərəfli Saziş” imzalanmış, TRASEKA-nın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Həmin dövrdə bəzi regional və beynəlxalq dairələrin əsassız qısqanclığına baxmayaraq, TRASEKA layihəsinin qədim İpək Yolu üzərində yenidən qurularaq əksər region ölkələri üçün çox böyük əhəmiyyət kəsb etməsi sübuta yetirilmişdir. Bu layihənin cəlbediciliyi, ilk növbədə, onunla ölçülürdü ki, o, eyni zamanda, Rusiyanın, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın daha əlverişli dəhliz vasitəsilə Avropa və dünya bazarlarına, o cümlədən geriyə çıxışını asanlaşdırırdı, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafına, dünya iqtisadiyyatı ilə inteqrasiyasına mühüm şərait yaradırdı.

TRASEKA layihəsi işə düşəndən, xüsusən BTQ istifadəyə veriləndən sonra Çindən başlayaraq Orta Asiyaya, Cənubi Qafqaza, sonra da Türkiyə vasitəsilə Avropaya, o cümlədən geriyə daşınan yüklərin çatdırılması müddəti dəniz daşımalarına nisbətən iki dəfədən çox qısalmışdır. Mütəxəssislərin fikrinə görə, bu dəhliz hazırda Avropanı Asiya ilə birləşdirən ən əlverişli, qısa və təhlükəsiz nəqliyyat dəhlizi hesab olunur. Onun vasitəsilə son illərdə daşınan malların həcmi bir neçə dəfə artmış və BTQ qitələri bağlayan ən əlverişli nəqliyyat körpüsü rolunu oynamağa başlamışdır.

Əsas qayəsi regionda və dünyada iqtisadi əlaqələrə, rifaha, sülhə, sabitlik və təhlükəsizliyə xidmət etməkdən ibarət olan BTQ vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, bu ərazidə yaradılan Azad Ticarət Zonası və s. mühüm infrastruktur layihələri Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi rol oynamışdır. Azad Ticarət Zonası yaxın gələcəkdə beynəlxalq yükdaşıma və Avropa-Asiya logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, həm də yerli istehsalın təşviqi, “Made in Azerbaijan” brendinin dünya üzrə tanınmasına müstəsna xidmət göstərəcəkdir. Azad Ticarət Zonasının regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməsi planlaşdırılır. Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən “İpək Yolu İqtisadi Kəməri” layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.

BTQ layihəsinin ölkəmiz üçün digər geosiyasi üstünlüklərindən biri də ondan ibarətdir ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu da müvafiq surətdə qardaş dövlətlər arasındakı münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Digər məsələ bu layihənin yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikasına qədər uzadılmasıdır. Layihə çərçivəsində Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da Muxtar Respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə şərait yaradacaqdır.

Azərbaycanın üçüncü minilliyin əvvəlindən xüsusi maraq göstərdiyi, son illərdə fəal şəkildə qoşulduğu və bundan sonra funksionallığı ciddi şəkildə yüksələn başqa bir transmilli nəqliyyat layihəsi “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi hesab olunur. Qeyd etmək istəyirəm ki, TRASEKA layihəsində olduğu kimi, Azərbaycan Respublikasının “Şimal-Cənub” nəqliyyat dəhlizinə qoşulması təşəbbüsü də Ümummilli Lider Heydər Əliyevə məxsusdur. Məhz Onun razılığı əsasında 2001-ci ildən başlayaraq Azərbaycan Respublikasını təmsil edən nümayəndələr Rusiya və İranın müvafiq qurumları ilə bu istiqamətdə müzakirələrə qoşulmuşlar. 2004-cü il mayın 19-21-də Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyəti Moskva şəhərində keçirilən Rusiya və İran dəmir yolu rəhbərlərinin müşavirəsinə qatılmış və üçtərəfli razılığa müvafiq olaraq “Şimal-Cənub” nəqliyyat dəhlizi üzrə Beynəlxalq Konsorsiumun yaradılmasında iştirak etmişdir. Sonrakı dövrdə hər üç ölkənin dəmir yollarına tranzit yük axınının cəlb edilməsi, birgə layihə-axtarış işlərinin görülməsi, ümumi məsələlərin və birgə işlərin əlaqələndirilməsi istiqamətindəki fəaliyyəti təmin olunmuşdur. 2005-ci il iyulun 24-27-də Tehran şəhərində və 2005-ci il fevralın 9-da Bakıda “Şimal-Cənub” nəqliyyat dəhlizinin tikintisi, gələcək istismarı, beynəlxalq konsorsiumun yaradılması və maliyyələşdirilməsi üsulları, hər bir tərəfin tikintidə payı, qoyulacaq əsaslı vəsaitin qaytarılması yolları və digər məsələlər müzakirə edilmiş və razılığa gəlinmişdir.

Məlum olduğu kimi, Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək “Şimal-Cənub” nəqliyyat dəhlizi haqqında ilk razılaşma aktı Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmışdır. Azərbaycan, qeyd edildiyi kimi, bu sazişə beş il sonra - 2005-ci ildə qoşulmuşdur. Sonrakı illərdə, ümumilikdə, 13 dövlət bu sazişə imza atmış və müvafiq olaraq ratifikasiya etmişdir. Bunlar Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə və Ukraynadır.

Mütəxəssislərin fikrinə görə, “Şimal-Cənub” nəqliyyat dəhlizinin əsas məqsədi, ilk növbədə, cənubdan - Hindistandan başlayaraq Rusiyaya, Şimali və Qərbi Avropaya, eləcə də Körfəz ölkələrinə daşınan yüklərin çatdırılma müddətini azaltmaq, daşıma qiymətlərini ucuzlaşdırmaq və dəhlizin funksionallığını artırmaqdan ibarətdir. Dəhliz bir neçə əsas istiqamət: Hindistan-Rusiya-Qafqaz-Körfəz ölkələri; Mərkəzi Asiya-Körfəz ölkələri; Xəzər dənizi-İran İslam Respublikası-Körfəz ölkələri və s. üzrə yükdaşıma fəaliyyətini nəzərdə tutur. Bu istiqamətlər içərisində Azərbaycan üçün ən maraqlı istiqamət yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirilməsi, sonra qatar və avtomobillərlə İranın mövcud dəmir və avtomobil yolları ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir və avtomobil yollarına ötürülməsi və buradan da Azərbaycan vasitəsilə Rusiyaya, Şimali Avropa ölkələrinə və s. çatdırılmasıdır. Hazırkı marşrut üzrə (Süveyş kanalı) malların çatdırılma vaxtı 45-60 gündür, “Şimal-Cənub” nəqliyyat dəhlizi vasitəsilə isə bu müddətin 14-20 gün olması gözlənilir.

Azərbaycan Hökuməti “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”nə uyğun olaraq, sonrakı müddətdə “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması prosesində fəal rol oynamış, ölkənin hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilməsinə nail ola bilmişdir. Dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində yaxın müddətdə gözlənilən yük daşımalarının həcmi təxminən birinci mərhələdə - 3 milyon ton, ikinci mərhələdə - 5-8 milyon ton və üçüncü mərhələdə - 15 milyon ton nəzərdə tutulur ki, buna nail olmaq istiqamətində də ciddi addımlar atılır. Hazırda mövcud nəqliyyat dəhlizinin reallaşması üzrə işlər çox intensiv şəkildə gedir və Azərbaycan hissəsində proses artıq son mərhələyə qədəm qoymuşdur. Astara (AR)-Astara (İİR) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər olan 8,3 kilometr yeni yolun, Astaraçay üzərindəki körpü və İran ərazisindəki 1,4 kilometr yolun tikintisi tamamlanmışdır. Bu dəhlizin Qəzvin-Rəşt (175 km) hissəsinin tikintisi ilə bağlı İran tərəfi ilə danışıqlar aparılır və işlər başlanmaq üzrədir. Azərbaycan bu dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Rəsmi Bakı İran tərəfinə bəhs olunan dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kredit ayırmağı nəzərdə tutub. Digər bir istiqamət - Şimal istiqaməti üzrə, Samur çayı üzərindən Samur (Azərbaycan)-Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası və dəmir yolu xətlərinin genişləndirilməsi ətrafında iş gedir. Dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib.

Azərbaycan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə qoşulmaqla, ilk növbədə, özünün həm Rusiya, həm də İranla quru sərhədinin əlverişli coğrafi xarakteristikasından səmərəli istifadə edərək üçtərəfli regional əməkdaşlığı inkişaf etdirmək və mövcud şəraitdən bəhrələnərək yeni-yeni dividendlər əldə etmək istəyir. Bundan başqa, Azərbaycan gələcəkdə bu istiqamətdə qonşu Gürcüstanın ərazisini və kommunikasiyalarını da işə salmaqla “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin inteqrasiyasını sürətləndirməyi nəzərdə tutur. Bu sahədə ən önəmli rolu, ilk növbədə, BTQ, Bakıdan Gürcüstandan keçməklə Türkiyəyə qədər uzanan avtomobil yolları, Xəzər dənizində və Qara dənizdə Azərbaycanın inşa etdiyi limanlar, o cümlədən Türkiyə və Gürcüstan ərazisindəki dəniz və dəmir yolu limanları oynayacaqdır. Dəhlizin yaradacağı imkanlardan Azərbaycanla yanaşı, Rusiya, İran, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları da istifadə edəcəklər.

Bundan başqa, xüsusi qeyd edilməlidir ki, “Şimal-Cənub” dəhlizi layihəsi Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası ərazisində dəmir yolu əlaqələrinin, həmçinin bu ölkələrin tranzit və iqtisadi potensialının gücləndirilməsinə xidmət edəcək, beynəlxalq yüklərin bu istiqamətə daha çox miqdarda axınına təkan verəcək. Azərbaycanın bu dəhlizdən gözləntiləri xüsusən çoxdur. “Şimal-Cənub” nəqliyyat dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya və Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcəkdir.

Son dövrlərdə “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regiondakı fərqli qütblər arasındakı geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda, Azərbaycan həm özünün multikultural və sabit ictimai-siyasi cəmiyyət həyatı ilə, həm də yürütdüyü balanslı xarici siyasət və tərəfdaşlıq kursu ilə xüsusi iqtisadi-siyasi dividendlər qazanmağı hədəfləyir. Bu hədəflərin ən mühümü, iqtisadi sahədə fəaliyyətin şaxələndirilməsi, post neft dövründə ölkəmiz üçün qeyri-neft sahəsindəki fəaliyyətdən əlavə gəlir mənbəyi əldə etməkdirsə, siyasi və geosiyasi sahədə regionda müstəqil siyasət yürüdən dövlət imicini qorumaq, regionda və dünyada bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə, təhlükəsizlik sahəsində hamılıqla beynəlxalq hüquq normalarına əməl etmək və s. ibarətdir.

Azərbaycan “Şimal-Cənub” nəqliyyat dəhlizinin xüsusi əhəmiyyətini nəzərə alaraq, son dövrdə İran və Rusiya istiqamətində yeni kommunikasiyaların yaradılmasına xeyli investisiya yatırmışdır ki, bu da ölkənin beynəlxalq aləmdəki etibarlı tərəfdaş imicini gücləndirmişdir. Bundan əvvəl, ölkəmizin liderliyi ilə BTQ-nin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilib istifadəyə verilməsi, bu məkanda azad iqtisadi zonanın yaradılması, Azərbaycanı bir tərəfdən Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), digər tərəfdən Cənubi Asiyanı (İran və Hindistan) Şimalla birləşdirən nəqliyyat qovşağının mərkəzinə çevirmişdir. Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər “Şimal-Cənub” layihəsinin reallaşması işini bir qədər gecikdirsə də, bu problemin Azərbaycanla bağlı olmadığı aydındır. Azərbaycan Respublikası öz öhdəsinə düşən bütün infrastruktur layihələrini uğurla həyata keçirmiş və istismara qəbul etmişdir.

## Sinxua: Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin-Azərbaycan əlaqələrinin inkişafını sürətləndirib




Mühüm coğrafi mövqeyə malik olan Azərbaycan son illərdə regional nəqliyyatın inkişafına özünün strateji istiqamətlənməsini möhkəmləndirib.

AZƏRTAC xəbər verir ki, bu fikir Çinin milli xəbər agentliyi olan Sinxuanın “Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin-Azərbaycan əlaqələrinin inkişafını sürətləndirib” adlı məqaləsində qeyd olunur.

Bildirilir ki, Azərbaycan özünü Avropa ilə Asiyanı birləşdirən enerji, nəqliyyat və logistika habı kimi tanıtmağı hədəfləyib. Azərbaycan hökuməti bu səylərin bir hissəsi olaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu infrastruktur və nəqliyyat sahəsində Çin-Azərbaycan əməkdaşlığını genişləndirmək üçün model layihə etməyə çalışır.

Yazıda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu haqqında məlumat verilərək bildirilir ki, Şərqdə Qazaxıstanın Çin ilə sərhədində yerləşən Dostıq məntəqəsindən başlayan marşrut Qərbdə Bakıya qədər uzanır. Marşrut dəniz və dəmir yolundan ibarətdir və Çini Qazaxıstan, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya bağlayır. Hazırda Azərbaycan marşrut boyunca yerləşən ölkələr ilə tariflərin azaldılması və gömrük əməliyyatlarının qısaldılmasını əlaqələndirməklə daha çox beynəlxalq yükü bu yol ilə daşınmağa cəlb etməyə çalışır.

Məqalədə qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev apreldə Sinxua agentliyinə verdiyi müsahibədə Azərbaycan ilə Çin arasında yükdaşımalar sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu vurğulamışdı. Dövlət başçısının həmin müsahibədə **“Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik... Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur”** fikirləri bir daha xatırladılır.

Müəllif yazır ki, həqiqətən son illər birgə səylər sayəsində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə inteqrasiyası istiqamətində əhəmiyyətli nəticələr əldə edilib. Çinin Sian şəhərindən yola çıxan blok qatarı iyulun 6-da Bakıya çatıb. Bu, “China Railway Express”in Bakıya dəmir yolu marşrutu ilə yük daşınmasının başlanğıcı idi. Bu yol ilə yüklər təyinat məntəqəsinə dəniz yolu ilə daşınmaya sərf olunan vaxtdan 20 gün daha tez çatır. “China Railway Express”in gələcəkdə daha çox yük daşımağı planlaşdırması ilə bu vacib yol “Bir kəmər, bir yol” strategiyasına qoşulmağa nail olacaq.

Məqalənin yekununda Azərbaycan ilə Çinin bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlığının regional tərəfdaşlığa və bölgədə yaşayan xalqlara fayda verməklə Azərbaycanın regional hab olmaq niyyətinin Çinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünə tam inteqrasiyasına gətirib çıxaracağı qeyd olunur.

## Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun “Strateji əməkdaş” statusu verilib




“Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası” və “Sülh və İnkişaf üçün Çin Dostluq Fondu” tərəfindən Çin Xalq Respublikasının Şencen şəhərində BMT tərəfindən rəsmi tanınan 4-cü Beynəlxalq Xeyriyyəçilik Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Avropa, Amerika və Asiya regionunda fəaliyyət göstərən xeyriyyəçi təşkilatların rəhbərləri və nümayəndələri iştirak edib.

Açılış mərasimində çıxış edən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin tədbirdə ilk dəfə iştirak edən təşkilatlara minnətdarlığını bildirib.

Forumda Heydər Əliyev Fondunun əsas missiyası, ölkədə və xaricdə həyata keçirdiyi layihələr haqqında məlumat verilib. Eyni zamanda, tədbirdə ilk dəfə iştirak edən Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumu tərəfindən “Strateji əməkdaş” statusu təqdim olunub.

Heydər Əliyev Fondu ilə “Sülh və İnkişaf üçün Çin Dostluq Fondu”nun prezidenti, “Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası”nın Baş katibi Li Xikui ilə görüşdə təşkilatlar arasında əməkdaşlıq perspektivləri və 5-ci Xeyriyyəçilik Forumunun 2020-ci ilin sentyabr ayında Bakıda keçirilməsi məsələsi müzakirə olunub.

## XİN: Azərbaycan təmas xəttində baş verən hadisəni araşdıracaq və onu törədənlər cəzalandırılacaq

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı vəziyyətini müəyyən etmək üçün iki ölkənin Xarici İşlər nazirlərinin Nyu-Yorkda baş tutan görüşü ərəfəsində təmas xəttində insident yaşandı və azərbaycanlı hərbi qulluqçu qətlə yetirildi. Azərbaycan bütün vasitələrlə bu hadisəni araşdıracaq və onu törədənlər cəzalandırılacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

**“Nazirlərin görüşünə gəldikdə isə, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə sadəcə fikir mübadiləsi aparıldı”,** - deyə açıqlamada qeyd edilir.

# Sosial Tədqiqatlar Mərkəzi "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda konfrans təşkil edib

## Konfransda stm.az saytının təqdimatı keçirilib



Sentyabrın 24-də Sosial Tədqiqatlar Mərkəzi (STM) "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda konfrans keçirib.

AZƏRTAC xəbər verir ki, tədbirdə stm.az saytının təqdimatı da keçirilib.

Tədbiri açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc Mərkəz haqqında məlumat verib. O bildirib ki, Sosial Araşdırmalar Mərkəzi 2019-cu ilin siyasi və sosial mühitində baş verən böyük dəyişikliklər məramının bariz nümunəsidir və ümummilli sosial dialoqun təşkili istiqamətində atılan mühüm addımlardan biridir. Daha dəqiq desək, vətəndaşı dövlət idarəçiliyinə yaxınlaşdırmaq, öz növbəsində, qarşılıqlı olaraq, onun da diqqət mərkəzinə dövlətimizi gətirmək, vətənin bu günü və gələcəyi naminə hər birimizi bacardığı töhfə və məsuliyyətini ortaya qoymağa səsləmək hadisəsidir.



İdarə Heyətinin sədri çıxışında Mərkəzin Nizamnaməsinin ehtiva etdiyi məsələlərə də toxunaraq deyib: **"Cəmiyyətin inkişafının müxtəlif istiqamətləri, təklif və proqnozları Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; aparılan siyasətin səmərəliliyinin artırılması məqsədilə idarəetmə prosesinin təkmilləşdirilməsi, qəbul edilən qərarların təsirlərinə dair tədqiqatların aparılması; dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasının sistemli təhlili; ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və sair".**

Görülən işlər barədə danışan Z.Oruc qeyd edib ki, müntəzəm olaraq, sosial-siyasi durum və proseslərin dinamikası ilə bağlı təhlillər, açıq və qapalı analitik hesabat və arayışlar hazırlanıb, ali rəhbərliyə və müvafiq dövlət orqanlarına təqdim olunub. Ölkə miqyasında tədqiqatlarla bağlı qurumların ümumi mənzərəsini təhlil etməyə çalışmışıq, bu sahədə əlaqələndirmə və sıx koordinasiyaya olan ehtiyacın qarşılanması üçün tədbirlərin hazırlanmasına başlanılıb. Ölkədə sosial-iqtisadi, siyasi və s. proseslərin dinamikası haqqında mötəbər sosial məlumat bazasının yaradılmasına başlanılıb. Cari il və perspektivlər üçün aktual sosial-siyasi məsələlərin elmi tədqiqat konsepsiyası - fəaliyyət planı hazırlanıb. Mərkəzin elmi-fəaliyyət planında ümumdövlət və ictimai əhəmiyyətli sosial məsələlər üstünlük təşkil edib. O cümlədən iqtidar və cəmiyyət arasında mövcud olan etimad və dialoqun möhkəmləndirilməsi, dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb edilməsi, sosial ictimai münasibətlərin aktual mövzularının tədqiqi yönündə mühüm addımlar atılıb. Sosial Tədqiqatlar Mərkəzi ictimai rəyin öyrənilməsi ilə əlaqədar 10 sosioloji tədqiqat və ictimai rəy sorğusunun keçirilməsini başa çatdırıb. Onların sırasında müxtəlif sosial təbəqələrin islahatlar prosesinə, dövlət başçısının sosial siyasətlə bağlı irimiqyaslı sərəncamlarına münasibəti və gözləntiləri, təhsilin sosioloji məsələləri və son tələbə qəbulunun iki mərhələli modelinə müxtəlif hədəf qruplarının münasibəti, dərsliklərlə bağlı mövcud vəziyyətin öyrənilməsi, sosial inkişaf və rifahın göstəriciləri, Azərbaycanda daxili miqrasiya proseslərinin xüsusiyyətləri ilə bağlı araşdırma və s. qeyd edilə bilər; "Sosial Tədqiqatlar" və "Azərbaycan barometri" adlı jurnallar Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilib, müntəzəm nəşrə hazırlıq başa çatıb.

STM rəhbəri əlavə edib ki, artıq mərkəz strukturlaşdırılıb, zəruri ilkin kadrların işə cəlbi - kollektivin formalaşması mümkün olub. Kadrları işə cəlb edərkən onların istedadı, bilik və bacarığı şəffaf əsaslarla müəyyən edilib.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Strateji araşdırma və planlaşdırma şöbəsinin müdiri Səadət Yusifova bildirib ki, hazırda uğurlu dövlət idarəetməsi sosial həyatın bütün aspektlərinin elmi cəhətdən kompleks öyrənilməsindən, ictimai münasibətlərin inkişaf tendensiyalarının, dəyişiklikləri doğuran amillərin müəyyən edilməsindən, optimal həll yollarının tapılmasından, dəyişikliklərə çevik reaksiya verilməsindən, düzgün proqnozlaşdırmadan, qısa, orta və uzunmüddətli perspektivlərin müəyyən edilməsindən asılıdır. Bu transformasiya dövlətlərin həyatında, davranışında, siyasətində özünü büruzə verir, zamanla ayaqlaşmanı, ən əsası isə bir sıra hallarda hətta bunu qabaqlamanı şərtləndirir. Cəmiyyətlərin, dövlətlərin həyatında baş verən köklü dəyişikliklər hər zaman bunları gerçəkləşdirən liderlərin adı ilə bağlıdır. Müasir Azərbaycan Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi prinsiplər, Onun yaratdığı möhkəm dövlətçilik təməli üzərində qurulub. Məhz həmin prinsipləri əsas tutaraq Prezident İlham Əliyev uzunmüddətli dayanıqlı inkişaf strategiyasını müəyyən edib. Əgər Azərbaycanın tarixi inkişaf yoluna nəzər salsaq, son 16 ildə tamamilə yeni yaradılmış Azərbaycanı görmüş olarıq.

Prezident Administrasiyasının şöbə müdiri qeyd edib ki, bugünkü Azərbaycan həm də bir neçə gün əvvəl 25 illiyini qeyd etdiyimiz "Əsrin müqaviləsi"nin yaratdığı ölkədir. İmzalanma mərasimində Heydər Əliyev demişdi ki, "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, onun firavan həyatı, Azərbaycan dövlətinin suverenliyinin qorunması üçün imkanlar yaradacaq. Onun arzuları bu gün həyata keçirilmiş gerçəklikdir.

Səadət Yusifova diqqətə çatdırıb ki, zaman yerində dayanmır, yeniliklər gətirir. Hazırda biz rəqəmsal texnologiyaların inkişafı ilə xarakterizə olunan növbəti sənaye inqilabı dövrünü yaşayırıq. Azərbaycan Prezidentinin son illər həyata keçirdiyi sistem xarakterli islahatlar məhz həmin transformasiyanın mərhələli şəkildə reallaşdırılmasına hədəflənib. Bu, özündə həm sosial innovasiyaları, həm institusional, həm də kadr islahatlarını ifadə edir. Sosial innovasiyalar cəmiyyətdə sosial dəyişikliklər doğuran məsələlərin həllinə yönəlmiş ideyalar, strategiyalar, texnologiyalardır. Sosial innovasiyalar insan həyatının keyfiyyətinin artırılması, qlobal tendensiyalara uyğun olaraq sosial infrastrukturun təkmilləşdirilməsi üçün yeni texnologiyalardan və biznes modellərdən istifadəni nəzərdə tutur. Prezident dəfələrlə öz çıxışlarında qeyd edib ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Təsadüfi deyil ki, sosial rifah dövlətinin qurulması Prezidentin yeni islahatlar kursunun strateji xəttini təşkil edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov deyib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra keçmiş Sovet İttifaqı ölkələri arasında ən dərin resessiyaya məruz qalmış bir ölkə olub. Bunun obyektiv səbəbləri var idi. Ölkə hərbi təcavüzə məruz qalmışdı, dövlətçiliyimiz, suverenliyimiz təhdid altında idi. Azərbaycanda iqtisadi islahatlar Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başladı və qısa bir zamanda öz nəticəsini verdi, resessiya aradan qaldırıldı. İndiyə qədər Azərbaycanda heyrətamiz inkişaf templəri müşahidə edilib. Prezident İlham Əliyev silsilə fərmanlar və sərəncamlar imzalayıb. Aparılan tədqiqatlar göstərir ki, əhalinin böyük bir hissəsi Prezident tərəfindən aparılan islahatları dəstəkləyir.

Emin Hüseynov qeyd edib ki, həyata keçirilən islahatlar insanların maddi durumuna müsbət təsir göstərir. 2015-ci ildə dünya bazarında neftin qiymətinin xeyli dərəcədə aşağı düşməsi nəticəsində ölkədə ikiqat devalvasiya baş verdikdən sonra əhalinin real gəlirləri azalmışdı. 2016-cı ildə inflyasiya ikirəqəmli səviyyədə idi, 2017-ci ildə də bu tendensiya davam etdi. Amma buna baxmayaraq, hökumət bu illərdə çox konservativ fiskal siyasət yürütdü. Əsas məqsəd makroiqtisadi sabitliyin bərpa olunması idi. Sözsüz ki, bu hədəfə nail olundu. Artıq 2019-cu ildə biz inflyasiyanın çox aşağı səviyyəsini müşahidə edirik. Real əməkhaqlarının artım tempi inflyasiyanı iki-üç dəfə üstələyir. Digər tərəfdən, insanların gəlirləri artdıqca bu, biznes üçün gəlir mənbəyidir ki, bu da növbəti dövrlərdə də iqtisadi artıma müəyyən təkan verəcək təsirə malik olacaq.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxışında bildirib ki, bu günə qədər "ASAN xidmət" mərkəzlərinə 33 milyona yaxın müraciət daxil olub. Nəzərə alsaq Azərbaycan əhalisinin sayı 10 milyondur, "ASAN xidmət" mərkəzlərinə edilən müraciətlərin sayının 33 milyon olması onu göstərir ki, vətəndaşlar mərkəzlərə dəfələrlə müraciət ediblər. Vətəndaşlar təqdim edilən 320-dən çox xidmətdən istifadə ediblər. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara təqdim edilən xidmətlərdən məmnunluq səviyyəsi 98-99 faizdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli çıxışında deyib ki, bu il Azərbaycanda minimum əməkhaqqı iki dəfə artırılıb. Başqa sözlə, minimum əməkhaqqı 130 manatdan 250 manata qaldırılıb. Bu da 1 milyon 350 min insanı əhatə edir. İl ərzində özünüməşğulluq proqramında 10 min vətəndaş iştirak edir. İlin əvvəlində pensiyaların minimum məbləğində 72 faiz artım olub. İlin əvvəlindən 14 mindən çox şəxsə elektron qaydada pensiya təyin edilib. Sosial müavinət və təqaüdlərin məbləği orta hesabla 2 dəfə artıb. 68 min ailə ünvanlı sosial yardımla əhatə olunur.

Mətin Kərimli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətində Sosial Tədqiqatlar Mərkəzinin hesabatlarına da istinad ediləcəyini diqqətə çatdırıb.

Konfransda Milli Məclisin deputatları Tahir Mirkişili, Musa Quliyev, Maliyyə nazirinin müşaviri Elman Mehdiyev, ADA Universitetinin İctimai və Beynəlxalq əlaqələr fakültəsinin dekanı Anar Vəliyev Azərbaycanda sosial-iqtisadi sahədə aparılan islahatlardan danışıblar.

Daha sonra Sosial Tədqiqatlar Mərkəzinin rəsmi saytı konfrans iştirakçılarına təqdim olunub.

Konfrans müzakirələrlə davam edib.

# Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib

Sentyabrın 24-də Milli Məclisin Regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, komitə sədri Arif Rəhimzadə yeni sessiyanın başlanması münasibətilə komitə üzvlərini təbrik edərək qarşıdakı sessiyada onlara uğurlar arzulayıb.

Daha sonra o, bu ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən işlərdən danışıb. Bildirilib ki, bu dövrdə komitənin 6 iclası keçirilib, bu iclaslarda 12 vacib məsələ müzakirə olunub ki, bunlardan 9-u qanun layihəsidir. Bildirilib ki, yaz və növbədənkənar sessiyalar müddətində komitənin ünvanına 119 təklif, ərizə və şikayət daxil olub. Bütün bu məsələlərə komitədə baxılıb müvafiq şəkildə həll edilib.

Arif Rəhimzadə hesabat dövründə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı Ədliyyə Nazirliyinin 2018-ci il üzrə illik məruzəsinin müzakirəsindən geniş söhbət açıb. Qeyd olunub ki, bu dövrdə komitədə bələdiyyələrin inkişaf məsələləri, onların işinin təkmilləşdirilməsi üçün bir sıra qanunlara mühüm dəyişikliklər edilib. Sonra komitə üzvlərinin hesabat dövründə beynəlxalq tədbirlərdə, ölkə daxilində siyasi və iqtisadi xarakterli toplantılarda iştirakından söz açılıb, seçicilərlə aparılan işlərdən danışılıb.

Deputatlar Fəttah Heydərov, Rüstəm Xəlilov, Fəzail İbrahimli, Tahir Rzayev, Azər Badamov, Kamran Bayramov, Cavid Osmanov çıxış edərək komitənin payız sessiyası dövründə fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Hesabat məqbul hesab edilib.

Arif Rəhimzadə payız sessiyasının qanunvericilik işləri planı ilə bağlı məlumatı da təqdim edib. Bildirilib ki, qarşıdakı sessiya müddətində komitədə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin dövlət reyestrinin aparılması və onlara şəhadətnamələrin verilməsi haqqında" və digər qanunlara dəyişikliklər edilməsi barədə yeni qanun layihələrinin hazırlanması və digər sənədlərin müzakirəsi planlaşdırılır.

İclasda bələdiyyələrin statusu ilə bağlı müvafiq icra hakimiyyəti orqanının bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsinin təşkil edilməsinin vacibliyi kimi təkliflər də səsləndirilib.

Ətraflı müzakirələrdən sonra komitənin 2019-cu ilin payız sessiyası üçün qanunvericilik işləri planı təsdiqlənib.

# Hikmət Babaoğlu: "Şimal-Cənub" dəhlizi Azərbaycanı bu istiqamətdə mühüm nəqliyyat qovşağına çevirir

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi olduqca strateji bir layihədir. Layihə Azərbaycanı bu istiqamətdə mühüm nəqliyyat qovşağına çevirir. Diqqət yetirsək görərik ki, mürəkkəb regionda geostrateji qütblər arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Azərbaycan məhz burada körpü rolunu oynamaqla özünün milli maraqlarını təmin edir.



Bu fikirləri AZƏRTAC-a Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputat qeyd edib ki, Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin mühüm həlqəsi olmaqla, həm iqtisadi, həm də strateji maraqlarını həyata keçirmək üçün siyasi dividendlər qazanır. Hindistanın Mumbai limanından İranın Bəndər-Abbas limanına qədər gələn yolun davamı kimi Qəzvin-Rəşt-Astara yolu ilə daşınan yüklərin Rusiya Federasiyasına, oradan isə Avropanın şimalındakı ölkələrə qədər ötürülməsi, heç şübhəsiz ki, nəqliyyat-kommunikasiya tarixində yeni bir hadisə kimi qiymətləndiriləcək.

Hikmət Babaoğlu bildirib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində çox böyük həcmdə yük daşımaları var. Bu yük daşımaları, əsas etibarilə, Süveyş kanalı üzərindən həyata keçirildiyi üçün 45-60 gün ərzində təyinat nöqtəsinə çatdırıla bilir. Lakin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi işə düşdükdən sonra bu müddət cəmi 14-20 gün olacaq ki, bu da yeni nəqliyyat dəhlizini olduqca cəlbedici bir dəhlizə çevirəcək. Çünki bu dəhliz, sadəcə, müddət baxımından deyil, həm də onun ətrafında olan siyasi-inzibati coğrafiyada ümumi təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Əlbəttə ki, Azərbaycan 2005-ci ildən bu layihəyə qoşulduqdan sonra onun çox fəal iştirakçısına çevrilib. Hətta Qəzvin-Rəşt-Astara avtomobil yolunun çəkilməsi ilə bağlı kredit ayrılıb. 2018-ci ildə İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfərindən sonra bir daha Azərbaycan və İran prezidentləri arasında bu məsələnin müzakirə olunaraq təqdir edilməsi onu göstərir ki, layihə təkcə nəqliyyat-kommunikasiya layihəsi deyil, həm də qonşu dövlətlə ikitərəfli münasibətlərin inkişafına yeni impulslar verəcək bir layihədir.

Hikmət Babaoğlu qeyd edib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Şərq-Qərb" Nəqliyyat Dəhlizindən sonra Azərbaycanın "Şimal-Cənub" Nəqliyyat Dəhlizi üzərində mühüm qovşağa çevrilməsi ölkəmizin mürəkkəb strateji regionda nüfuzunu artırmaqla yanaşı, həm də iqtisadi maraqlarını təmin etmiş olacaq.

# Naqif Həmzəyev: Ölkəmizdə xalq-iqtidar birliyi qarşılıqlı inam üzərində bərqərar olub

Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edən, ölkə vətəndaşının mənafeyinin və hüquqlarının üstünlüyünü hədəf seçmiş islahatlar, enerji, nəqliyyat sferalarında, xarici siyasətdə qazanılan analoji uğurlar bir-birini tamamlayaraq, dövlətin dayanıqlı inkişafında harmoniya yarada bilib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.

Deputat qeyd edib ki, 2019-cu ilin ilk aylarından ayrı-ayrı sahələr üzrə verilən qərarlar, həyata keçirilən islahatlar ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsinə, maddi və mənəvi rifah halının yaxşılaşmasına, Azərbaycanın müstəqil dövlət kimi güclənməsinə xidmət edib. Son illər aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb, vətəndaşların maddi rifah halı yüksəlib. Qısa müddət ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması Azərbaycanda həyata keçirilən iqtisadi və struktur islahatlar nəticəsində son dövrlər büdcə gəlirlərinin artması, maliyyə imkanlarının genişlənməsi sosial sahəyə daha çox diqqətin göstərilməsinə daha bir əyani sübutdur.

Naqif Həmzəyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsinə, maddi və mənəvi rifah halının yaxşılaşmasına, Azərbaycanın müstəqil dövlət kimi güclənməsinə xidmət edir. Problemli kreditlərin həlli istiqamətində məlum sənədin imzalanması, maaşların, pensiyaların, minimum əməkhaqqının, sosial müavinətlərin artırılması ölkədə sosial-iqtisadi islahatlarla bağlı növbəti mərhələnin başlanğıcı oldu. Cari ilin birinci yarısının sosial-iqtisadi yekunları isə bir daha təsdiq etdi ki, Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişafdadır. Xüsusilə də qeyri-neft sektorundakı artım tempi bu sahənin inkişafı istiqamətində həyata keçirilən siyasətin uğurlu olmasından xəbər verdi. Ölkə iqtisadiyyatının, qeyri-neft sektorunun, qeyri-neft sənayesinin artması, kiçik və orta sahibkarlığın, kənd təsərrüfatının dayanıqlı şəkildə inkişafı, ticarət dövriyyəsinin artması yaxşı göstəricilərdən oldu. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik.



**"Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, sosial-iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması bir daha təsdiq etdi ki, dövlətimizin başçısı tərəfindən verilən vədlər sözdə deyil, əməldə öz təsdiqini tapır. Artıq Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial dövlət modelini uğurlu tətbiq edən ölkələr sırasındadır. Azərbaycan Prezidentinin humanizmi, xoş gündə də, dar gündə də xalqının yanında olması, xalqın arzu və istəklərini reallaşdırması, xalqa arxalanaraq inqilabi islahatlara getməsi müstəqil Azərbaycanımızı daha böyük zəfərlərə, iqtisadiyyatın, əhalinin rifah halının daha da yüksəlməsinə doğru aparır. Azərbaycan xalqı da hər zaman dövlətimizin başçısı tərəfindən həyata keçirilən tədbirləri, imzalanan sərəncam və fərmanları yüksək qiymətləndirir, atılan addımları alqışlayır.**

**Xalqımız yaxşı bilir ki, Prezident İlham Əliyevin uğurlu və mütərəqqi sosial siyasəti, hər bir vətəndaşına olan yüksək münasibəti xalqın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edir. Bu da xalq - iqtidar birliyinin qarşılıqlı inam və etimad üzərində bərqərar olduğunun əyani təsdiqidir"**, - deyə deputat vurğulayıb.

# Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır

*Ekspertlərin qeyd etdikləri kimi, Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevrilən Azərbaycan regional və beynəlxalq əməkdaşlığın dərinləşməsinə fundamental töhfələr verir*



Müstəqil Azərbaycanın müasir mənzərəsini səciyyələndirən ən mühüm amillər möhkəm ictimai-siyasi sabitlik və dinamik iqtisadi inkişafdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir çağırışlara uyğun həyata keçirilən uğurlu siyasət Azərbaycanın tərəqqi yolunda inamla irəliləməsini təmin edib. Azərbaycanın müstəqil milli dövlət kimi dinamik inkişaf yolunda inamla və əmin addımlarla irəliləməsini təmin edən mühüm strateji amillərdən biri milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasətin həyata keçirilməsidir. Bu strateji kurs respublikamızın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini təmin edib. Regional güc mərkəzi olan respublikamız həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bütövlükdə, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

Şübhəsiz ki, bu kontekstdə milli maraqlara əsaslanan, praqmatik enerji strategiyasının əhəmiyyəti xüsusi vurğulanmalıdır. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulan rasional enerji strategiyasının uğurla icra olunması nəticəsində həm sosial-iqtisadi inkişaf, yüksəliş təmin olunub, həm də Azərbaycanın təşəbbüsü və liderliyi ilə geostrateji əhəmiyyətli layihələr reallaşdırılıb, mühüm beynəlxalq əməkdaşlıq platformaları yaradılıb. "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirdi, regional əhəmiyyətli, qlobal xarakterli yeni əməkdaşlıq platformalarının yaranmasını təmin etdi. Beləliklə, Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik və rasional siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusuna çevrilib. Təsadüfi deyil ki, bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Əsas strateji məqamlardan biri də budur ki, Azərbaycanın praqmatik enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində, əməkdaşlığın dərinləşməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının yaradılması, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması çoxşaxəli əməkdaşlığın səmərəli nəticələridir.

Bunlarla yanaşı, Azərbaycanda yaradılan müasir infrastruktur ölkəmizi Avrasiyada strateji nəqliyyat qovşağına çevirib. Son 15 ildə ölkəmizin Avropa ilə Asiya arasında mühüm tranzit məkana çevrilməsini təmin etmək məqsədilə böyük iş həcmi yerinə yetirilib, bir sıra önəmli layihələr reallaşdırılıb. Respublikamızın ərazisində həmçinin "Şimal-Cənub" dəhlizinin ayrı-ayrı seqmentlərini təşkil edən magistralların yenidən qurulması da uğurla həyata keçirilir. İndiyədək respublikamız istər Rusiya sərhədinə, istərsə də İran sərhədinədək olan magistralların yenidən qurulmasına böyük həcmlərdə maliyyə vəsaiti yönəldib. Bütövlükdə isə, Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır.



***Hadi Rəcəbli:***
*"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan çox mühüm strateji dividendlər əldə edir*



***Məlahət İbrahimqızı:***
*Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə müasir infrastrukturun qurulmasına böyük dəstək verir*

Məsələyə münasibət bildirən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib ki, bu gün Azərbaycan dünyada güclü-qüdrətli və nüfuzlu dövlət kimi tanınır. Onun sözlərinə görə, ölkəmizin sürətli inkişafını, davamlı nailiyyətlər əldə etməsini şərtləndirən strateji amil uğurlu daxili və xarici siyasətin həyata keçirilməsidir: **"Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, sosial infrastrukturun yüksək səviyyədə və modern tələblərə müvafiq qurulması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və digər mühüm nailiyyətlər Azərbaycanın milli gücünün artmasını təmin edib. Xüsusilə də, neft gəlirlərindən səmərəli istifadə olunması iqtisadi inkişafı sürətləndirib, Azərbaycanın bütün sahələrdə uğurlar qazanmasını şərtləndirib. Bilirsiniz ki, 1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin tarixi xidməti sayəsində Bakıda Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanması ilə start verilən yeni enerji siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində həm sosial-iqtisadi yüksəliş təmin olunub, həm də strateji əhəmiyyətli layihələr reallaşdırılıb. Ölkədə yüksək infrastruktur təminatının yaradılması, geniş abadlıq-quruculuq işlərinin aparılması, regionların dinamik inkişafının təmin olunması da xüsusi vurğulanmalıdır. Sosial infrastruktur da tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub".**

**"Eyni zamanda, ölkəmiz Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan çox mühüm strateji dividendlər əldə edir. Bununla yanaşı, nəqliyyat xidmətlərini inkişaf etdirməsi, müasir infrastruktur yaradaraq daşımaların idarə olunması mexanizmini təkmilləşdirməsi, beynəlxalq nəqliyyat sisteminə inteqrasiyanı genişləndirməsi regional və beynəlxalq əməkdaşlığın dərinləşməsini şərtləndirib",** - deyən Hadi Rəcəbli əlavə edib ki, Azərbaycan beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edib.

Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı isə qeyd edib ki, Azərbaycan regional və beynəlxalq əməkdaşlığın dərinləşməsinə fundamental töhfələr verir, ölkəmizin iştirakı ilə strateji əhəmiyyətli layihələrin reallaşdırılması yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir: **"Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm geostrateji əhəmiyyətə malik olan layihələr həyata keçirilir. Eyni zamanda, həm də ölkəmiz Avrasiyanın yeni nəqliyyat xəritəsini yaradır. Bu günə qədər Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen yataqlarının ehtiyatlarının işlənməsi, o cümlədən dünya bazarlarına nəqli ilə bağlı regional və qlobal əhəmiyyət daşıyan layihələr reallaşdırılıb və şaxələndirilmiş infrastruktur qurulub. Nəticədə Azərbaycan Avropanın etibarlı enerji təchizatçısına çevrilib. Eyni zamanda, Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə müasir infrastrukturun qurulmasına böyük dəstək verir. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan özünün bu üstünlüyündən bəhrələnərək ölkə ərazisindən tranzit daşımaların həcminin artırılmasına nail olmaq üçün müvafiq infrastruktur qurulmasına hərtərəfli dəstək verir".**

Azərbaycanın bölgədə müasir nəqliyyat infrastrukturunun formalaşması işində fəal rol oynadığını deyən Məlahət İbrahimqızı əlavə edib ki, həm "Şərq-Qərb", həm "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizdən keçir: **"Qeyd etdiyim kimi, Azərbaycanda avtomobil və dəmir yollarının, beynəlxalq hava limanlarının və dəniz limanlarının inkişafına çox böyük investisiyalar qoyulur. Bütün bunların hamısı gələcəyə hesablanan və perspektivdə Azərbaycandan daha çox tranzit yüklərin keçməsi üçün atılan strateji əhəmiyyətli addımlardır".**

**Nurlan QƏLƏNDƏRLİ**

# Ölkəmizin inkişaf strategiyasının mahiyyətində davamlı iqtisadi artım və yüksək sosial rifah dayanır



***Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov www.yap.org.az saytına müsahibə verib:***

**- Hüseynbala müəllim, bu gün ölkəmiz bütün sahələr üzrə uğurla inkişaf etməkdədir. Əldə olunan nəticələri necə qiymətləndirirsiniz?**

- Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişafını uğurla davam etdirir. Dövlətimizin iqtisadi siyasətinin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün məsələlərin həllində iqtisadi aspektin ön plana çəkilməsidir. Dövlət proqramlarının, ölkə başçısının Fərman və sərəncamlarının icrası Azərbaycanda gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu davamlı şəkildə artırır.

Cənab Prezident İlham Əliyevin hərtərəfli inkişaf strategiyasının mahiyyətində mövcud imkan və resurslara söykənərək Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifaha nail olmaq dayanır. Bununla yanaşı, dövlət başçısının müəyyənləşdirdiyi bu kompleks inkişaf xətti səmərəli dövlət idarəetməsini, qanunun aliliyini, insanların hüquq və azadlıqlarının tam təminatını və vətəndaşların respublikamızın ictimai həyatında fəal statusunu da özündə ehtiva edir. Cənab Prezidentin 16 illik fəaliyyəti nəticəsində Azərbaycan hazırda iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətədavamlı ölkəyə çevrilib. Bu gün Azərbaycanın ən ucqar bölgələrində də vətəndaşlarımızın rahat gündəlik həyatı üçün zəruri olan rabitə, internet, bank və kommunal xidmətlər, yollar və digər kommunikasiyalar, səviyyəli səhiyyə və təhsil xidmətləri təmin edilib.

Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas xəttini təşkil edir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlü olması, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev imzaladığı Fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin edib, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Bütün bunlar ölkəmizin inkişafı prosesində yüksək nəticələr verməkdədir.

**- Cari ildə əhalinin sosial rifah halının daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu barədə nə deyə bilərsiniz?**

- Əlbəttə ki, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı verdiyi qərarlar inqilabi xarakter daşıyır. Bu qərarlar 2018-ci ildən etibarən xüsusilə intensivləşib. Bu istiqamətdə atılan addımlar müqayisəyəgəlməzdir. Bilirsiniz ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezidentimiz cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib. Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib. Bütün bunlarla yanaşı, bu il ərzində minimum pensiyanın, minimum əməkhaqqının əhəmiyyətli dərəcədə artırılması da vacib məqamlardan biridir. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı nəticəsində aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

**"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır",** - deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

Dövlət başçısının atdığı addımlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşının yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, verilən hər bir qərar Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib.

**- Bu gün Azərbaycan dünyada neft-qaz ölkəsi kimi də tanınır. Ümumiyyətlə, ölkəmizin həyata keçirdiyi enerji siyasətinin əhəmiyyəti nədən ibarətdir?**

- Bu gün Azərbaycan Respublikası özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir.

Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir. Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Digər tərəfdən, Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə - diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir.

Bütövlükdə, Azərbaycanla enerji sahəsində tərəfdaşlıq əhəmiyyətli strateji dividendlər vəd edir və çoxşaxəli tərəfdaşlıq nöqteyi-nəzərindən yüksək qiymətləndirilir. Çünki Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi əhəmiyyət verən aparıcı dövlətlər üçün mühüm önəm daşıyır. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi və iqtisadi, həmçinin enerji təhlükəsizliyinin təmin olunmasında birbaşa rol oynayır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Beləliklə, dünya dövlətləri Azərbaycanın siyasi əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda enerji təhlükəsizliyi sahəsində əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu qəbul edir.

**- Ölkəmizin uğurlu inkişafı fonunda bəzi dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Bu prosesdə xaricdəki mühacirlər daha çox "fəallıq" göstərirlər. Bu barədə fikirlərinizi bilmək istərdik...**

- Azərbaycanın çoxşaxəli inkişafı qaçıb xaricdə mühacir adının kölgəsində gizlənib dövlətimizə qarşı çirkin kampaniyalar aparan qaragüruhu dərindən narahat edir. Həmin bu qaragüruh mühacirlər merkantil maraqları ucbatından anti-Azərbaycan dairəyə daxil olan müxtəlif xarici kəşfiyyat orqanlarının, ermənipərəst qüvvələrin və digər bədniyyət çevrələrin əlində alətə çevrilirlər. Zaman-zaman Azərbaycana qarşı təsir rıçaqları kimi istifadə edilən mühacirlərin sırf qrant üçün öz dövlətinə və dövlətçilik ənənələrinə ziyan vurmaq cəhdləri uğursuzluqla nəticələnib və bundan sonra da onların çirkin niyyətləri reallaşmayacaq. Ona görə ki, Azərbaycan yuxarıda sadaladığımız kimi, bu gün öz ayaqları üzərində müstəqil siyasət yürüdən qüdrətli dövlətdir, ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur, xalqımız seçdiyi və sevdiyi Prezidentinin ətrafında yumruq kimi birləşib. Cənab Prezidentin həyata keçirdiyi siyasi xətt cəmiyyət tərəfindən birmənalı şəkildə dəstəklənir.

Xalqımız həmişə zamanın sınaqlarından üzüağ çıxıb və bundan sonra da anti-Azərbaycan mövqe sərgiləyən bir ovuc qara qüvvənin dövlətimizə qarşı apardığı mənfur planları puça çıxaracaq. Xaricdən idarə olunan bu cür qüvvələrin müdaxilələri heç vaxt hədəfinə çatmayacaq.

Ətrafına yüzminlərlə vətəndaşımızı toplayan Yeni Azərbaycan Partiyası həmişə belə həssas məqamlarda lokomotiv qüvvə olduğunu nümayiş etdirərək cəmiyyəti dövlətimizə qarşı qarayaxma kampaniyası aparanlara qarşı mübarizədə həmrəyliyə çağırır. Çünki YAP-ın Azərbaycanın milli dövlətçilik tarixində, cəmiyyət həyatında kəsb etdiyi mahiyyət bir partiyanın nəzəri təqdimatından çox-çox üstündür. Partiyamızın fəaliyyətinin ilk günlərindən dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, özünü Azərbaycana bağlı sayan hər kəsin bu partiyada öz yerini görməsi, onun sıralarında, təəssübkeşliyində, Heydər Əliyev ideyaları ətrafında sıx birləşməsi də bir daha sübut edir ki, ölkəmizdəki siyasi proseslərə xarici müdaxilə cəhdləri heç vaxt münbit şərait tapmayacaq və hər zamankı kimi fiaskoya uğrayacaq. Güclü dövlətimiz və xalqımız heç vaxt xarici müdaxilələrə imkan verməyəcək.

# YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin şura iclası keçirilib



Sentyabrın 24-də Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı Gənclər Birliyinin şura iclası keçirilib. İclasda təşkilatın Gənclər Birliyinin fəaliyyət planı və gənclərin sosial şəbəkələrdə fəallığının artırılması ilə bağlı bir sıra məsələlər geniş müzakirə olunub.

İclası giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, müasir dövrdə gənclər siyasəti yeni mərhələyə qədəm qoyub: **"Bu gün Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf, təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycanın maliyyə-iqtisadi potensialı artdıqca bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib. Ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır".**

Təşkilatın Gənclər Birliyinin sədri Rüfət Əhmədov, YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin şura üzvləri Aqşin Məmmədov, Mehdi Bünyadov, Tosif Mahmudov və Vilayət Mirzəyev çıxış edərək gənclərin partiya həyatında fəallığından danışıblar.

İclasın sonunda YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov ideoloji sahədə fəaliyyətin gücləndirilməsi üçün tövsiyə və tapşırıqlarını verib.

# Azərbaycan Avtomobil Federasiyasının dəstəyi ilə "BMW Fest 2019" festivalı keçirilib



Dənizkənarı Milli Parkın ərazisində Azərbaycan Avtomobil Federasiyasının dəstəyi ilə "BMW Fest 2019" keçirilib.

Federasiyadan AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində BMW avtomobillərinin nümayişi və sərgisi, yerli idmançıların iştirakı ilə drift yarışları, uşaqlar üçün kartinq məşğələləri təşkil olunub.

Tədbirə "BMW Club Azərbaycan"ın üzvləri ilə yanaşı, digər avtomobil klublarından da qonaqlar qatılıblar.

# AZƏRTAC və TASS arasında növbəti təcrübə mübadiləsi proqramı həyata keçirilir



AZƏRTAC və Rusiyanın TASS agentliyi arasında təcrübə mübadiləsi çərçivəsində növbəti proqramın həyata keçirilməsinə başlanılıb.

Bununla bağlı Azərbaycana gələn TASS agentliyinin işlər idarəsinin rəis müavini Olqa Miranskaya və beynəlxalq əlaqələr idarəsinin şöbə müdiri Olqa Çertkova AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovla görüşüblər.

Görüşdə iki agentlik arasında mövcud tərəfdaşlıq əlaqələri, beynəlxalq təşkilatlarda birgə fəaliyyət istiqamətləri, əməkdaşlığın perspektivləri diqqət mərkəzində olub. Rəsmi əməkdaşlıq barədə müqaviləni agentliklər 15 il öncə imzalayıblar. Bu sənəd əsasında tərəflər uğurlu informasiya və təcrübə mübadiləsi həyata keçirir.

Hər il reallaşdırılan təcrübə mübadiləsi proqramı AZƏRTAC və TASS agentliklərinə tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirməyə imkan verir. İndiyədək yaradıcılıq, texniki, marketinq və digər sahələrin mütəxəssisləri bu layihədə iştirak ediblər.

Agentliklər beynəlxalq təşkilatlarda da qarşılıqlı əlaqədə fəaliyyət göstərir. AZƏRTAC 2016-cı ildən 2019-cu ilin iyununadək TASS-ın təşəbbüsü ilə 2004-cü ildə yaradılan Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edib. Agentliyin hazırda Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatında (OANA) sədrliyi davam edir. Hər iki agentlik OANA-nın idarəedici qurumu olan İcraiyyə Komitəsinin üzvüdür.

Agentlikləri sıx tarixi əlaqələr bağlayır. Postsovet məkanında qocaman xəbər agentliklərindən olan TASS-ın bu il 115 yaşı tamam olub, AZƏRTAC-ın isə gələn ilin martında 100 illik yubileyi qeyd olunacaq.

Proqram çərçivəsində Rusiya agentliyinin Bakıya səfər edən əməkdaşları AZƏRTAC-dakı həmkarları ilə görüşəcək və müvafiq sahələr üzrə fikir mübadiləsi aparacaqlar.

Xatırladaq ki, AZƏRTAC dünyanın bir çox agentlikləri ilə təcrübə mübadiləsi proqramları həyata keçirir. Bu layihələr çərçivəsində yeni texnologiyaların tətbiqi, xəbər buraxılışı işinin təkmilləşdirilməsi, sosial şəbəkələr və mobil texnologiyalar dövründə informasiyanın hazırlanması, rəqabətə davamlılıq və digər məsələlərə geniş yer verilir.

# <u>Vüqar Rəhimzadə</u>: Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi tərəfdaş ölkələrin iqtisadi imkanlarını daha da genişləndirəcək

Zəngin neft və qaz yataqlarına malik olan Azərbaycan bu resursları beynəlxalq bazarlara nəql etmək üçün çoxsaylı boru kəmərlərinin reallaşmasında təşəbbüsçü və iştirakçı kimi çıxış edib, onların uğurlu sonluğa başa çatmasına nail olub. Əsas hədəf iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişafın dayanıqlılığını təmin etməkdir. Son illərdə sənayenin, kənd təsərrüfatının, turizmin, xidmətlər sektorunun, informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yönəlib. Müasir infrastrukturun yaradılması, nəqliyyat sahəsinə investisiyaların yatırılması prioritetlərimiz sırasındadır. Ölkəmiz coğrafi mövqeyindən bəhrələnərək Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, Azərbaycan beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşmasında Azərbaycanın rolunu şərh edərkən bildirib.

V.Rəhimzadə qeyd edib ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Şərqi Asiya ölkələri ilə Avropanı əlaqələndirən irihəcmli layihədir. Bu layihənin əsası 2000-ci ildə Sankt-Peterburq şəhərində Rusiya, İran və Hindistan tərəfindən qoyulub. Sonralar layihəyə Qazaxıstan, Türkmənistan, Tacikistan, Belarus, Ukrayna, İordaniya, Bolqarıstan da qoşulub. Azərbaycan 2005-ci ildə bu layihəyə qoşulmaqla qısa müddətdə onun aparıcı iştirakçısına çevrildi. Dövlətimizin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət ayırmasının əsasında dayanan amillərdən biri Azərbaycanı logistika və tranzit mərkəzə çevirməkdir. Bu amil dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olması ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdıracaq, ölkənin ixrac potensialını artıracaq.

**"Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tamamilə işə düşməsi nəinki region ölkələrinin iqtisadi inkişafına təkan verəcək, eyni zamanda, həmin ölkələr siyasi sabitlik əldə etmiş olacaqlar"**, - söyləyən V.Rəhimzadə qeyd edib ki, hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər Şimal-Cənub layihəsinin reallaşmasını gecikdirsə də bu problemin ölkəmizdən qaynaqlanmadığı aydın görünür. Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması üçün zəruri olan infrastruktur layihələrini uğurla icra edib. Dövlətimizin başçısı İlham Əliyev bildirir: **"Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atılmışdır. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edib, İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edib, eyni zamanda, dəmir yolu körpüsünü də inşa edib. Beləliklə, Azərbaycan öz ərazisində bu layihə üzrə bütün lazımi tədbirləri görüb və layihənin ümumi icrası ilə bağlı da öz töhfəsini verməyə hazırdır"**.

V.Rəhimzadə diqqəti hazırda dünyanın 150 ölkəsi tərəfindən böyük dəstək qazanan Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşmasına Azərbaycanın verdiyi töhfələrə yönəldib. Bildirib ki, bu ilin aprelində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq



Əməkdaşlıq Forumu Azərbaycanın tranzit imkanlarının təqdimatında əhəmiyyətli rol oynadı: **"Həmin Forumda bir daha qeyd olundu ki, əlverişli coğrafi məkana, zəngin təbii resurslara malik olan Azərbaycanın xarici investorlar üçün cəlbedici ölkə olması ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına, bu əlaqələrin mühüm əhəmiyyət kəsb edən layihələrin gerçəkləşdirilməsi ilə möhkəmləndirilməsinə geniş imkanlar açır. Son 16 ilə yaxın dövr ərzində ölkə iqtisadiyyatına 260 milyard dollara yaxın investisiyanın qoyulması da bunun bariz nümunəsidir. Dövlətimizin başçısı İlham Əliyev daim infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırılması ilə Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrildiyini, əsas sərmayənin yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldildiyini, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin ölkəmizin ərazisindən keçdiyini önə çəkərək bildirir ki, infrastrukturun inkişafına çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verilir. Azərbaycan həm Şərq-Qərb və həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir"**.

# Azərbaycanın tərəqqisi Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir

Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması, ölkədə sabitliyin və təhlükəsizliyin təmin edilməsi, insan kapitalının inkişafı, xalqın mədəni və milli-mənəvi irsinin qorunub saxlanılması, mühüm transmilli enerji və nəqliyyat layihələrinin gerçəkləşdirilməsi xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Səs" Media Holdinqin rəhbəri Bəhruz Quliyev deyib.

Bəhruz Quliyev bildirib ki, dövlətimizin başçısının həyata keçirdiyi prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində ölkədə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulub, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunda güclü potensialın formalaşdırılması, əhalinin sosial təminatı sahəsində inqilabi nəticələr əldə olunub. Bunu təkcə yerli siyasi və iqtisadi ekspertlər deyil, həm də dünyanın nüfuzlu reytinq və beynəlxalq təşkilatları də etiraf



edirlər. Digər tərəfdən, Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər dünya ölkələrinə nümunə olaraq göstərilir.

**"Azərbaycanda güclü sosial siyasət həyata keçirilir. Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir"**, - deyən B.Quliyev əlavə edib ki, ilin əvvəlindən dövlətimizin başçısının təsdiqlədiyi iki böyük sosial paketin reallaşdırılması nəticəsində Azərbaycanda minimum əməkhaqqı və pensiya qaldırılıb, qaçqın və məcburi köçkünlərin həyat şəraiti yaxşılaşdırılıb, şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsi təmin olunub.

"Səs" Media Holdinqin rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev hər zaman Azərbaycan xalqının yanındadır və xalqın dəstəyinə arxalanır. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurların yüksək qiymətləndirir. Ölkə başçısı hər zaman xalqdan güc alıb, xalqımız da Prezidentə həmişə dəstəkləyib. Xalq-iqtidar birliyinin sarsılmazlığının əsasında da bu amil dayanır. Buna görə də Azərbaycan dövləti gələcəkdə daha da möhkəmlənəcək, daha da inkişaf edəcək.

# ATƏT-in iclasında Azərbaycanın milli azlıqların hüquqlarının qorunması sahəsində nailiyyətlərindən danışılıb




Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunmuş yekun iclası keçirilir.

AZƏRTAC xəbər verir ki, hər il payızda keçirilən bu tədbirdə ATƏT-ə üzv olan ölkələr insan ölçüsünə dair konsensus yolu ilə qəbul etdikləri öhdəliklərin yerinə yetirilməsinə dair hesabat verirlər. Yekun iclasda ATƏT-ə üzv olan 57 ölkə ilə yanaşı, beynəlxalq təşkilatlar, QHT-lər də iştirak edirlər. Tədbir sentyabrın 27-dək davam edəcək.

Sentyabrın 24-də sözügedən tədbirin "Tolerantlıq və qeyri-ayrı-seçkilik. Milli azlıqlara mənsub olan şəxslərin hüquqları" mövzusuna həsr olunmuş 12-ci işçi sessiyasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edib, tədbir iştirakçılarına ölkəmizdə dövlət tərəfindən milli azlıqların hüquqlarının qorunması sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

E.Nəcəfov çıxışında Azərbaycanda milli azlıqların hüquqlarının qorunmasının ölkəmizin multikulturalizm siyasəti çərçivəsində həyata keçirildiyini bildirib. O, Azərbaycan Respublikasının multikulturalizm siyasəti çərçivəsində ölkədə yaşayan milli azlıqların sosial, iqtisadi və mədəni məsələlərinin yüksək səviyyədə həll olunduğunu qeyd edərək burada milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması istiqamətində dövlət tərəfindən mühüm işlərin görüldüyünü tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Şöbə müdiri konkret faktlara əsaslanaraq, qeyd edib ki, 2004-cü ildən indiyədək ölkə regionlarının sosial-iqtisadi inkişafına, o cümlədən milli azlıqların kompakt yaşadıqları regionların sosial-iqtisadi inkişafına yönəlib və hər biri 5 ili əhatə edən 4 dövlət proqramı qəbul olunub. Əvvəlki 3 proqramın hər biri uğurla icra edilib. Bununla yanaşı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər çərçivəsində bir neçə Prezident sərəncamlarının imzalandığı diqqətə çatdırılıb. Bu sərəncamlara əsasən, milli azlıqların kompakt yaşadıqları cənub, şimal və şimal-qərb bölgələrində sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və s. sahələrdə böyük layihələr həyata keçirildiyi bildirilib.

# Statistika Komitəsi Kişineuda keçirilən beynəlxalq tədbirdə təmsil olunur

Dövlət Statistika Komitəsi Moldovanın paytaxtı Kişineuda keçirilən beynəlxalq tədbirdə təmsil olunur.

Komitədən AZƏRTAC-a bildirilib ki, sentyabrın 24-26-da Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin milli statistika idarələrinin rəhbərləri üçün "Statistik əməkdaşlıqda növbəti addım" mövzusunda Yüksək Səviyyəli Seminar keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Tədbirdə Avropa İqtisadi Komissiyasının "Şərq tərəfdaşlığı vasitəsilə statistika (STEP)" layihəsi üzrə maliyyə, iqtisadi və texniki məsələlərə dair hesabata baxılacaq. Həmçinin Avropa Statistika Bürosunun, Avropa Azad Ticarət Assosiasiyasının, BMT-nin Avropa İqtisadi Komissiyasının Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri ilə statistik əməkdaşlıq üzrə fəaliyyətləri, statistika sistemində aparılan qlobal qiymətləndirmələr, "Rəsmi statistika haqqında" model qanun, eləcə də BMT-nin Avropa Statistikləri Konfransının əhali və mənzil




fondunun siyahıyaalınmasının 2020-ci il mərhələsi üzrə tövsiyələri, rəsmi statistika məlumatlarının keyfiyyətinin təmin edilməsi ilə bağlı tətbiq olunan yeni texnologiyalar və irihəcmli məlumatlarla bağlı məsələlər, milli statistika sisteminin təkmilləşdirilməsi ilə əlaqədar görülmüş son işlər müzakirə olunacaq.

Səfər zamanı Dövlət Statistika Komitəsi ilə tərəfdaş ölkələrin statistika qurumları arasında mövcud əlaqələrin genişləndirilməsi və qarşılıqlı əməkdaşlıq perspektivlərinin müzakirə edilməsi də nəzərdə tutulub.

# Radikal müxalifət yenidən mitinq manipulyasiyasına əl atır

*Dağıdıcı ünsürlər "alternativ məkan" olaraq irəli sürdükləri yerlərdə insanların çox olduğunu nəzərə alır və kənar müşahidəçilərin hesabına izdiham görüntüsü yaradacaqlarını düşünürlər*

İtirdiyi bir addım belə inkişaf edə bilməyən, ermənipərəst, antimilli xarici mərkəzlərdən ianələr əldə etmək üçün gündə bir rəngə düşən radikal düşərgə təmsilçiləri öz "ənənə"lərindən əl çəkmirlər. Məhz xarici sifariş əsasında mitinq-şoulari təşkil etməyə çalışan və bunun yerinə isə "dost-tanış yığıncağı" təşkil edən radikal dağıdıcıların bu "toplantı"larının ssenarisi isə öncədən bəllidir. Daha doğrusu, Əli Kərimli-Cəmil Həsənli duetinin hər zamankı kimi "köhnə nəğmələr" söyləyəcəyi və ermənipərəst mərkəzlərin direktivlərini səsləndirəcəyi şübhə doğurmur.



Yeri gəlmişkən, qeyd edək ki, qondarma "Milli şura" sentyabrın 28-də mitinq keçirmək üçün Bakı şəhər İcra Hakimiyyətinə müraciət edib. Sadəcə olaraq, mitinqin keçirilmə yeri kimi hazırda təmirdə olan məkanın göstərilməsinin özü radikalların kütləvi aksiya keçirmək arzusunda olmadığının, manipulyasiya etdiyinin göstəricisidir. Digər tərəfdən, alternativ məkan olaraq göstərilən yerlər isə nəqliyyatın intensivliyinin maksimal səviyyədə olduğu yerlərdir. Bu da təsadüfi deyil. Təşkilatçılar həmin məkanlarda insanların çox olduğunu nəzərə alır və kənar müşahidəçilərin hesabına izdiham görüntüsü yaradacaqlarını düşünürlər. Onların insanların rahatlığının pozulması, nəqliyyatın hərəkətinin iflic vəziyyətə düşməsi və bu kimi fəsadlar qətiyyən maraqlandırmır.

Vurğulandığı kimi, qaragüruh abhava ilə yaşayan radikal ünsürlər elə düşünürlər ki, "sərbəst toplaşma azadlığı" digər insanların hüquqlarını da pozmağa "imkan verir". Mitinqdən çıxanların yolları kəsməsi, hətta avtobusların, nəqliyyat vasitələrinin hərəkətinə açıq və qəsdən maneçilik törətməsi, həmin ərazidə yerləşən ticarət obyektlərinə qarşı aqressiv münasibət sərgiləməsi və əraziyə yaxın yaşayan insanların istirahət hüququnu pozması konkret olaraq qanun pozuntusudur. Radikal ünsürlərin dağıdıcılığı bir "həyat fəlsəfəsi"nə çevirdiklərini nəzərə aldıqda isə onların bu arzuya düşmələri heç də qeyri-adi görünmür. Əli Kərimli və ətrafındakılar "elektorat" adlandırdıqları partiya üzvlərini, yaxınlarını, qohum-əqrəbalarını yalnız qisasçılığa, dağıdıcılığa kökləyib və bu insanların normal, sivil mübarizədən xəbərsiz olduqlarını anlamaq mümkündür.

Qeyd olunmalıdır ki, bu insanlar qanunlar çərçivəsində tədbir keçirmək, istimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Çünki hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar. Adını "demokrat" qoymuş dağıdıcı ünsürlər keçirdikləri aksiyalar zamanı çıxışlarında da cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. 26 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaqyorucu səs təmbrləri yenidən təkrarlanır. Müxtəlif yalanlarla cəmiyyəti çaşdırmağa niyyətlənən Əli Kərimli və onun kimi siyasi alverlə məşğul olanlar öz yalanlarının arxasında gizlənməyə çalışsalar da, bu, mümkün deyil. Onlar özləri də bilirlər ki, cəmiyyətdə dayaqları yoxdur və əhali onların sosial şəbəkələrdə boğazdan yuxarı çağırışlarına biganədir. Necə deyərlər, görünən dağa bələdçi lazım deyil. Azərbaycan xalqı nəinki onları dəstəkləmir, hətta birmənalı şəkildə onların anti-Azərbaycan fəaliyyətini pisləyir və anlayır ki, bu kimi "mitinq" şouları dağıdıcı, milli maraqlara zidd fəaliyyətə, ermənipərəst, islamofob, anti-azərbaycançı dairələrin tapşırıqlarını yerinə yetirməyə hesablanıb. AXCP-nin "üzvləri" yalnız sosial şəbəkədəki "fake" simalardır ki, onlar da Əli Kərimlinin gülünc statuslarını "like" etməkdən başqa bir işə yaramırlar.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Ölkə sahibkarları regionların sosial-iqtisadi inkişafı prosesində fəal iştirak edirlər

## Bu ilin ötən dövründə sahibkarlara 108 milyon manatadək güzəştli kredit verilib




Məlum olduğu kimi, son 16 ildə ölkəmiz böyük inkişaf yolu keçib. Bu inkişaf cari ilin birinci yarısında da uğurla davam edib. Belə ki, iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlətimizin başçısı 2019-cu ilin birinci yarımilliyində ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin icra olunduğunu qeyd edib, görülmüş işləri müsbət qiymətləndirib. Ümumiyyətlə, dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olan Azərbaycan iqtisadiyyatı bu ilin birinci yarımilliyində 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,7 faiz, ticarət dövriyyəsi 20 faizdən çox, qeyri-neft ixracı 15 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb. Ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da böyük hissəsi qeyri-neft sektorunun payına düşür. Eləcə də valyuta ehtiyatlarımız rekord həddə çataraq 49 milyard dollar səviyyəsindədir. Bu ilin 6 ayında əhalinin gəlirləri 6,6 faiz artıb, inflyasiya 2,5 faiz təşkil edib. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması da dövlət başçısının inkişaf strategiyasının əsas hədəflərindən biridir. 2019-cu ilin əvvəlində təsdiqlənmiş böyük sosial paket 4,2 milyon insanı əhatə edir. Sözügedən müşavirədə dövlətimizin başçısı qarşıdakı dövr üçün mühüm vəzifələr müəyyənləşdirib. Belə ki, Prezident İlham Əliyev iqtisadi artım üçün yeni mənbələrin axtarılması, qeyri-neft sektorunun inkişafı, istehlak bazarına daim nəzarət olunması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyinin davam etdirilməsi, sosial sahənin diqqət mərkəzində saxlanılması, iş yerlərinin yaradılması prosesinin davam etdirilməsi, o cümlədən özəl sektorda daha çox iş yerlərinin yaradılması, Azərbaycanın innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etdirilməsi və sair istiqamətdə tapşırıqlar verib. Onu da qeyd edək ki, inkişaf prosesində region sahibkarlarının da özünəməxsus rolu var. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə maarifləndirmə, maliyyə dəstəyinin göstərilməsi istiqamətlərində tədbirləri davam etdirir. Fondun sentyabrın 20-də İmişli rayonunda keçirdiyi işgüzar forumda Aran iqtisadi rayonunda fəaliyyət göstərən 41 sahibkara 767 min manat güzəştli kredit verilib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, kreditlər əsasən heyvandarlıq, əkinçilik və sair sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması hesabına 50-dən çox iş yerinin açılması mümkün olacaq.

Sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə sahibkarların maariflendirilməsi, yeni dəstək mexanizmlərinin hazırlanması və tətbiqi, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi istiqamətlərində fond fəaliyyətini davam etdirir. Forum çərçivəsində Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin verilməsi mexanizmi barədə treninq keçirilib, İmişli rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan pambıq və süd emalı, çörək istehsalı müəssisələrinin, taxılçılıq, bağçılıq, tərəvəzçilik təsərrüfatlarının, müasir heyvandarlıq, taxıl anbarı komplekslərinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkədə sahibkarlığın inkişafı və özəl bölmənin iqtisadiyyatda rolunun daha da artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Sahibkarlığın İnkişafı Fondunun özəl bölmənin inkişafında, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi sahəsində gördüyü işlər barədə danışan S.Məmmədov bu ilin ötən dövründə sahibkarların ümumi dəyəri 436 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 108 milyon manatadək güzəştli kredit verildiyini, bu investisiya layihələrinin reallaşdırılmasının 3600-dən çox yeni iş yerinin yaradılmasına imkan yaratdığını bildirib.

Qeyd edilib ki, ümumilikdə bugünkü tədbirdə verilən kreditlər də daxil olmaqla indiyədək Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 14 min 100-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 589,9 milyon manat güzəştli kredit verilib.

Tədbir çərçivəsində İmişlidə güzəştli kredit ayrılmış iri fermer təsərrüfatına baxış keçirilib.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun təşkilatçılığı ilə Lerikdə sahibkarlığın güzəştli kreditləşdirilməsinə dair keçirilən işgüzar forumda isə Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən 36 sahibkara 456,4 min manat güzəştli kredit verilib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, bu kreditlər heyvandarlıq, əkinçilik, bağçılıq və sair sahələrin inkişafına yönəldiləcək. Bu güzəştli kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 50-dək iş yerinin açılması mümkün olacaq.

Tədbir çərçivəsində Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlərinin alınması qaydaları barədə məlumat verilib, Lerik rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan kənd turizmi, kartofçuluq, arıçılıq, cins heyvandarlıq təsərrüfatının və meyvə-tərəvəz emalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı olub.

Forumda İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq sahibkarlıq fəaliyyətinin, xüsusilə innovativ sahibkarlığın inkişafının daha da genişlənməsi üçün sistemli və ardıcıl tədbirlərin, kompleks islahatların həyata keçirildiyini, əlverişli işgüzar mühitin yaradıldığını vurğulayıb. Ümumilikdə bu forumda verilən kreditlər də daxil olmaqla indiyədək Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 3500-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 125,7 milyon manat güzəştli kredit verilib.

Forum çərçivəsində Sahibkarlığın İnkişafı Fondundan güzəştli kredit ayrılmış turizm kompleksinə də baxış keçirilib.

Sahibkarlığın İnkişafı Fondu digər işgüzar forumu Xaçmaz rayonunda keçirib. Forum çərçivəsində Xaçmaz rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan intensiv bağçılıq, tingçilik, cins heyvandarlıq, arıçılıq təsərrüfatlarının, logistik mərkəzin, quru meyvə istehsalı və süd emalı müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

Tədbirdə çıxış edən İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkədə sahibkarlığın genişləndirilməsi və özəl bölmənin iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirlərinin sistemli və ardıcıl olaraq davam etdirildiyini vurğulayıb. Bu baxımdan sahibkarların maliyyə resursları ilə təmin olunmasının əsas mexanizmlərdən olduğunu vurğulayıb.

İşgüzar forum çərçivəsində Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən 41 sahibkara 3,8 milyon manat güzəştli kredit verilib. Verilən kreditlər turizm, heyvandarlıq, bağçılıq, aqroparkın yaradılması, tara istehsalı və sair sahələrə yönəldiləcək. Bu kreditlərdən yararlanmaqla investisiya layihələrinin reallaşdırılması hesabına 300-dən çox iş yerinin açılması mümkün olacaq. Ümumilikdə bugünkü tədbirdə verilən kreditlər də daxil olmaqla indiyədək Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2731 investisiya layihəsinin maliyyələşdirilməsinə 217,3 milyon manat güzəştli kredit verilib. Tədbir çərçivəsində Xaçmazda güzəştli kredit ayrılan fındıq emalı müəssisəsinə baxış keçirilib.

Onu da qeyd edək ki, regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda maraqlı olan qadınların maarifləndirilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən birgə tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində avqust və sentyabr aylarında Qazax, Ağstafa, Samux və Naftalan rayonlarında gənc qadınlar üçün müxtəlif mövzularda təlimlər təşkil olunub. "Öz biznesinə başla", "Biznes planın hazırlanması", "Potensial gənc qadın sahibkarların İKT bacarıqları" mövzularında təşkil olunmuş təlimlərdə 100-ə yaxın iştirakçı biznes planın, elektron maliyyə hesabatlarının hazırlanması, İKT üzrə bilik və bacarıqlar, sahibkarlıq sahəsində qanunvericilik, dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırılıb.

Təlimləri uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

Növbəti mərhələdə iştirakçı qadınların istehsal müəssisələrinə təcrübə səfərləri təşkil olunacaq.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov deyib ki, agentlik olaraq mikro və kiçik sahibkarlara, xüsusilə də qadın və əlil sahibkarlara, startaplara və gənclərə dövlət dəstəyi mexanizmləri və agentliyin təqdim etdiyi xidmətlər çərçivəsində böyük dəstək göstəririk. Onun sözlərinə görə, belə dəstək tədbirlərindən biri də mikro və kiçik sahibkarların ölkədə keçirilən müxtəlif sərgi və festivallarda iştirakının təmin edilməsidir. Burada əsas məqsəd KOB-ların öz məhsul və xidmətlərini təqdim etməsinə, satış imkanlarını genişləndirməsinə, biznes əlaqələri qurmasına dəstək olmaqdır. Sərginin gedişatından görünür ki, qadın sahibkarlar çox aktivdirlər.

O.Məmmədov qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələnməsi baxımından belə sektoral sərgilərin əhəmiyyətini vurğulayıb, müvafiq sahələrdə xeyli sayda mikro, kiçik və orta biznes subyektlərinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

**Nardar BAYRAMLI**

# Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin Heydər Əliyev Mərkəzində fərdi sərgisi açılacaq




Oktyabrın 1-də Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin "Yaddaşın əlifbası" (The Alphabet of Memory) adlı fərdi sərgisi açılacaq. Ekspozisiyada müəllifin 20-dən çox əsəri nümayiş olunacaq.

AZƏRTAC xəbər verir ki, ekspozisiyada müəllifin İmadəddin Nəsimiyə həsr etdiyi instalyasiyası da sərgilənəcək. "Recm Nasimi" ("Nəsiminin rəcmi və ya daşqalağı") adlı əsəri yaradarkən müəllif İmadəddin Nəsiminin unikal şəxsiyyətindən və poetik irsindən ilhamlanıb. Ahmet Güneştekin bu instalyasiyada sufiliyin ədəbi və fəlsəfi qolu olan hürufiliyin ehkamlarını əks etdirir.

Sərgilənəcək işlər arasında Ahmet Güneştekinin məşhur "Ölümsüzlük otağı" da var. Müəllif bu instalyasiyasını Şanlıurfa şəhərinin şimal-şərqində yerləşən Göbəkli təpədə aşkar edilmiş arxeoloji tapıntıların təsiri ilə yaradıb. "Gilqameş dastanı" və "Nuh tufanı" əfsanəsi onun əsas ilham mənbələri olub. Böyük rezonans doğuran əsər ilk dəfə 2018-ci ildə nümayiş etdirilib. Rəssam "Ölümsüzlük otağı" üzərində müxtəlif peşəyə sahib 130 nəfərlə birgə çalışıb. Əsər 22 min metal kəllə və buynuz hissədən ibarətdir. 35 ton alüminiumdan hazırlanıb.

Türkiyə müasir incəsənətinin əsas simalarından olan Ahmet Güneştekin 1966-cı ildə anadan olub. Beş yaşından rəsm çəkən Güneştekin 1981-ci ildə İstanbula gəlib. 1997-ci ildə İstanbulda ilk studiyasını qurub. 2003-cü ildə Atatürk Mədəniyyət Mərkəzində "Zülmətdən sonra rənglər" adlı ilk böyük sərgisini açıb. 2005-ci ildə "Günəşin izində" sənədli layihəsini həyata keçirib. 2010-cu ildə İstanbulda Güneştekin Sənət Mərkəzini yaradıb. 2013-cü ildə Venesiyada ilk beynəlxalq sərgisini açıb və Malboro (Marlborough) qalereyası ilə əməkdaşlıq etməyə başlayıb.

Rəssamın Heydər Əliyev Mərkəzindəki sərgisi 2020-ci il martın 31-dək davam edəcək.

# Bakıda "Xəzəri qoruyaq!" adlı kütləvi ekoloji aksiya keçirilib



21 sentyabr tarixində Beynəlxalq Sahilyanı Təmizlik Günündə ölkənin nüfuzlu şirkətləri, dövlət qurumları, müxtəlif təşkilat və yüzlərlə könüllülərin iştirakı ilə keçirilmiş "Xəzəri qoruyaq!" adlı genişmiqyaslı ekoloji aksiya çərçivəsində Buzovna çimərliyi tullantılardan təmizlənib.

"Coca-Cola", "Bakcell", "PAŞA Bank" şirkətlərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, ASAN Könüllülük Məktəbinin təşkilatçılığı, həmçinin, Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin, ABŞ-ın və Avropa İttifaqına üzv ölkələrin səfirliklərinin, ADA universiteti, "AzEkol", "Carlsberg Azerbaijan", "Nargis" jurnalı, "ASAN Radio", "Xəzər TV", AFFA və Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilmiş aksiya çərçivəsində 700-dən çox insan sahilyanı ərazini 3 tona yaxın tullantıdan təmizləyib.

"Xəzəri qoruyaq!" aksiyası çərçivəsində toplanılmış tullantıların bölgüsü belədir: 1815 kq qida qalıqları, tikinti materialları və şüşə, 211 kq plastmas, 30 kq karton və kağız, 15 kq sellofan torba.

Qeyd edək ki, dünyanın bir çox ölkəsi hər il 21 sentyabr tarixini Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər. Azərbaycan da bu beynəlxalq ekoloji aksiyada artıq 9 ildir ki, iştirak edir.

**"Coca-Cola" bütün dünyada aktual olan məişət tullantıları probleminin həllində fəal rol oynayır. Azərbaycanda artıq 9 ildir ki, çoxsaylı tərəfdaşlarımız ilə birlikdə Xəzər dənizinin sahillərini hər il çimərlik mövsümü bitdikdə məişət tullantılarından təmizləyərək, insanları ətraf mühitə qarşı daha məsuliyyətli olmağa çağırırıq. Çox şadıq ki, Azərbaycan bu beynəlxalq hərəkatda hər il fəal iştirak edir və bu yolla biz, ölkəmizin, Xəzər dənizimizin daha təmiz olmasına töhfəmizi vermiş oluruq"**, - deyə "Coca-Cola" şirkətinin Qafqaz regionu üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Elşad Fərzəliyev bildirib.

**"Hər il daha çox insanın, xüsusilə də gənclərin fəal şəkildə bu ekoloji aksiyaya qoşulduğunu müşahidə edirik və bu fakt bizi sevindirməyə bilməz. Bu tədbir sadəcə ekoloji aksiya deyil, həm də rəngarəng proqramı ilə böyük bir bayramdır. "Bakcell" şirkəti qarşıdakı illərdə də bu böyük layihəyə dəstək verməyə hazırdır"**, - deyə "Bakcell" şirkətinin PR və Korporativ kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli bu tip layihələrin gənclərin inkişafına verdiyi töhfəni vurğulayıb: **"Hər ötən il aksiyaya qatılan könüllülərin sayı durmadan artır. Builki aksiyaya 500 "ASAN könüllüsü"nün qatılması gənclərin ekoloji layihələrə marağının artmasının bariz nümunəsidir. Ekoloji layihələrin gənclərin həm də sosial məsuliyyətli fərd kimi formalaşmasında xüsusi yeri var. Bu layihə sayəsində gənclər öz üzərilərinə düşən məsuliyyəti dərk etmiş olurlar".**

"Xəzəri qoruyaq!" şüarı altında Buzovna çimərliyində keçirilən aksiya çərçivəsində təxminən 3 tona yaxın tullantı qismən emala göndərilib, qalan hissəsi isə Balaxanı poliqonuna göndərilib. Hər il çimərlik mövsümünün sonunda gənclərin, şirkət əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumunun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik üçün lazımi ləvazimatlarla təmin olunub.

Qeyd edək ki, Azərbaycanda son 9 il ərzində keçirilən analoji birgünlük aksiya çərçivəsində Xəzər dənizinin çimərliklərinin 45 hektara yaxın ərazisi 35ton məişət tullantısından təmizlənib. Təmizlənən ərazilərdən toplanan tullantılar qeydə alınaraq "Ocean Concervancy" beynəlxalq təşkilatına göndərilir. Həmin məlumatlar isə öz növbəsində dünya su hövzələrinin təmizlənməsi haqqında ölkələr üzrə beynəlxalq hesabatlarda əks olunur.

# "Nar"dan abunəçilərə operativ və keyfiyyətli müştəri xidmətləri




Hər bir abunəçisinin tələbinə xüsusi diqqət yetirən "Nar" müştərilərə fərdi yanaşmanı yüksək səviyyədə təmin edir. Təqdim etdiyi məhsullar, yüksək sürətli şəbəkə ilə yanaşı, mobil operator istifadəçilərinə müxtəlif platformalar vasitəsilə keyfiyyətli müştəri xidməti göstərməkdədir. 6 ay ərzində 777 Çağrı Mərkəzinə 4.2 milyon zəng daxil olub ki, onlara ortalama 23 saniyə ərzində cavab verilib. "Nar"-ın yüksək keyfiyyətli xidməti nəticəsində Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 89%-i onlara göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. 2019-cu ilin ilk 6 ayı ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə isə 115 mindən çox müraciət daxil olub. Daxil olmuş müraciətlərin 95%-i "Nar"ın sosial media komandası tərəfindən 1 dəqiqə ərzində cavablandırılıb.

Müştəri yönümlü strategiyasının davamı olaraq təqdim edilən və müştəri xidməti funksiyasını reallaşdıran "Nar+" tətbiqi hesabı daha asan idarə etmək, nömrəni hər zaman nəzarət altında saxlamaq, bütün xidmət və məhsullardan xəbərdar olmaq imkanı verir.

Abunəçilərinin etibarlı tərəfdaşı kimi "Nar"ın həyata keçirdiyi müştəri yönümlü strategiyası müştəri məmnuniyyətinin artımına da səbəb olub. Abunəçilərinə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq "Nar" mobil operatorlar arasında müştəri loyallığı indeksi üzrə birinci olub.

Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU